RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 226 (8819) ÇƏRŞƏNBƏ, 20 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Zəfərin izi ilə

# QARABAĞIN HAVA QAPISI






## İLHAM ƏLİYEV Füzuli Beynəlxalq Hava Limanını cəmi 8 aya inşa etdirdi

**Yolumuz Şuşayadır...**
**İşğaldan azad olunmuş ərazilərə daxil oluruq. Nəzarət-buraxılış məntəqəsini keçib "Zəfər yolu" ilə irəliləyirik. Bir neçə kilometrdən sonra maraqlı və modern dizaynda inşa olunmuş Füzuli Beynəlxalq Hava Limanına yetişirik. Bura "Zəfər yolu"nun ilk ünvanıdır. Böyük sevinc və fəxarət hissi ilə aeroportun ərazisinə daxil olub görülən işlərlə maraqlanırıq.**
**Hava limanı ilə tanışlığımız Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Füzuliyə səfərlərindən bir gün öncəyə təsadüf edirdi. Oktyabrın 17-də dövlət başçısı səfər çərçivəsində hava limanına da baş çəkib görülən son tamamlama işləri ilə tanış olmalı idi. Ona görə də bütün işçi qüvvəsi səfərbər olunmuşdu.**

### "Zəfər yolu"nun ilk ünvanı

Hava limanında böyük izdiham var idi. Ərazidə bekar qalan işçi qüvvəsi görmək mümkün deyildi, hər kəs öz işi ilə məşğul idi.

Kənardan müşahidə aparıb həm işlərin gedişatını izləyir, həm də məlumat toplayırdıq.

Ardı 5-ci səh.



## Avropa İttifaqı Azərbaycanla əməkdaşlığın inkişafına önəm verir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf perspektivləri müzakirə edildi, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın inkişafına önəm verdiyi vurğulandı, Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu bildirildi. Söhbət zamanı bu ilin iyul ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfərinə toxunularaq səfər zamanı Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən görüşün Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına mühüm töhfə verdiyi qeyd olundu.

Görüşdə Avropa İttifaqının regionda sabitliyin və sülhün möhkəmləndirilməsi, etimad mühitinin formalaşdırılması işinə töhfə verməyə hazır olduğu vurğulandı.

Söhbət zamanı, həmçinin Şərq Tərəfdaşlığının qarşıdan gələn Zirvə toplantısı barədə fikir mübadiləsi aparıldı.

## 11 ayda 14 səfər

### Prezidentin Qarabağ və Şərqi Zəngəzura səfərləri bu bölgələrin sürətli dirçəlməsinə ən mühüm dəstəkdir

**Prezident İlham Əliyevin Qarabağ torpaqlarına növbəti səfəri oktyabr ayının 17-də Füzuli rayonuna oldu. Bu, Müzəffər Ali Baş Komandanın işğaldan azad olunmuş rayonlarımıza ötən 11 ayda etdiyi sayca 14-cü səfər idi.**

Bu səfərin oktyabr ayının 17-nə təsadüf etməsinin isə rəmzi mənası vardı. Çünki ötən ilin həmin tarixində Füzuli şəhəri işğaldan azad olunmuşdu. Dövlət başçısı müharibədən sonra işğaldan azad edilmiş rayonlara ilk səfərini də ötən il noyabrın 16-sında Füzuli rayonuna etmişdi.

### Vətən müharibəsinin strateji uğuru

Azərbaycan Ordusunun işğal altında olan şəhər və kəndlərimizin azad edilməsi uğrunda həyata keçirdiyi hərbi əməliyyatların hər biri öz unikallığı ilə seçilir. O cümlədən Füzuli şəhərinin azad olunması da ordumuzun ən uğurlu əməliyyatlarından biri kimi Vətən müharibəsinin tarixinə düşüb.

Vətən müharibəsinin ilk günü Füzuli rayonunun bir



neçə kəndinin azad edilməsi ilə başladı. Ordumuz cəbhənin digər hissələrində olduğu kimi, Füzuli şəhəri istiqamətində də düşmənin müqavimətini qıraraq onları geri çəkilməyə məcbur etdi. Lakin 30 ilə yaxın bir dövrdə düşmən arxa eşelonlarda da mürəkkəb müdafiə mövqeləri qurmuş, istehkamlar yaratmışdı. Əlbəttə, düşməni birinci eşelondan vurub çıxaran hərbçilərimiz Füzuli şəhərini də elə döyüşlərin ilk günlərində azad edə bilərdilər. Əslində düşmən də Qaraxanbəyli, Qərvənd, Horadiz, Aşağı Əbdürrəhmanlı kəndlərinin azad edilməsindən sonra növbəti hücumun Füzuli şəhəri istiqamətində olacağını gözləyirdi. Lakin ordumuz Cəbrayıl və daha sonra Hadrut istiqamətlərində hücuma üstünlük verməklə düşməni öz resurslarının böyük qismini Füzuli şəhəri istiqamətində saxlamağa məcbur etdi.

Hadrutun işğaldan azad olunmasından sonra Füzulinin azad edilməsi üçün daha əlverişli şərait yarandı.

Ardı 5-ci səh.

## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

"Baykar" şirkətinin İdarə Heyətinin sədri Özdemir Bayraktarın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin üzvlərinə və yaxınlarınıza səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 oktyabr 2021-ci il*

## Azərbaycanda keçən ilin eyni dövründəkinə nisbətən neft hasilatı artıb

### Artım əsasən OPEC+ razılaşması çərçivəsində tətbiq olunan məhdudiyyətlərin nisbətən yumşaldılması ilə bağlıdır

Azərbaycanda həyata keçirilən neft, qaz və ixrac layihələri dünyaya səs salıb. Ölkəmiz təşəbbüskarı və aparıcı qüvvəsi olduğu "Cənub qaz dəhlizi" layihəsini gerçəkləşdirməklə Avropanın enerji xəritəsini yenidən çəkib. Bütün bu layihələr çərçivəsində etibarlı, möhkəm beynəlxalq əməkdaşlıq platforması yaradılıb.

Son iki-üç onillik ərzində mərhələ-mərhələ işlənən "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" yataqları Azərbaycana önəmli gəlirlər gətirməkdə, regionun digər ölkələrinin əhalisinin həyatına müsbət təsir göstərməkdədir. Bununla yanaşı, Xəzərin Azərbaycan sektorunda yeni karbohidrogen yataqları kəşf olunub və onlarla bağlı layihələr nəzərdə tutulan plan üzrə irəliləyir.

Ardı 3-cü səh.

## 25 gündə 27 illik işğala son qoyuldu

### İlham Əliyev Zəngilanı bölgənin mühüm nəqliyyat-logistika qovşağına çevirir

**Vətən müharibəsinin 25-cü günüdür...**
**Bütün cəbhəboyu ərazilərdə hələ də gərgin döyüşlər gedir, işğal etdiyi torpaqlarımızdan geri çəkilmək istəməyən düşmən ciddi müqavimət göstərir...**

Azərbaycan Ordusu üzərinə düşən şərəfli missiyanı yerinə yetirir. Bəzən bir yaşayış məntəqəsinin alınması üçün günlərlə qanlı döyüşlər aparılır. Təbii ki, 30 ilə yaxın müdafiə istehkamlarının qurulduğu, çətin relyef şəraiti olan bu torpaqların azad edilməsi heç də asan deyil. Hər yaşayış məntəqəsinin azad edilməsi böyük əzm, rəşadət tələb edir...

Amma bu çətin şəraitə baxmayaraq, hər gün üçrəngli bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Həyəcanverici, qürurla dolu olan bu günlərin hər birində yeni tarix yaradılır: hər gün Azərbaycan bayrağı yeni bir kənddə, yeni bir yüksəklikdə dalğalanır, qələbə xəbərləri bir-birini əvəz edir. İllərlə həsrətində olduğumuz bütün Qarabağ torpağının, havasının qoxusunu ciyərlərimizə doyunca çəkəcəyimiz günün çox yaxında olacağına hər kəs inanır. Ötən günlər ərzində şəhidlərimiz olsa da, bu, döyüş meydanındakı üstünlüyümüzə zərrə qədər təsir etməyib. Düşmən ona məxsus olmayan bu torpaqlardan qorxaraq qaçır, igidlərimiz isə Vətən uğrunda hər gün daha da irəli gedir.

2020-ci il oktyabrın 20-sidir...

Müzəffər Ali Baş Komandanımız xalqa müraciətində növbəti qələbə müjdəsini çatdırır: "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir! Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk.

Ardı 4-cü səh.

## Ermənistanda qiymətlər bir il ərzində 3 dəfəyədək bahalaşıb

### Əhalinin gəlirləri isə daha da azalır

**İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın iqtisadiyyatı və sosial həyatında yaranan ağır vəziyyət davam edir.**

Erməni ekspertlərin özləri də etiraf edirlər ki, bu gedişlə ölkə daha böyük fəlakətlərlə üzləşməli olacaq. Yaşanan iqtisadi böhran şəraitində gündəlik istehlak, xüsusən də, ərzaq məhsullarının qiymətində artım ölkənin durumunu daha da pisləşdirir.

Ardı 8-ci səh.



## Dövlətin əhalinin sosial rifahının qorunması sahəsində tədbirləri davamlıdır

### Bunun bir məqsədi də dünya bazarındakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin qarşısını almaqdır

**Dünya postpandemiya dövrünə qədəm qoyub. Hazırda bütün dövlətlər son iki ildə iqtisadiyyatda yaranan geriliyi aradan qaldırmaq üçün səy göstərir.**

Bununla bağlı yeni bir tendensiya da meydana gəlir. Biznes dairələri yenidən işlərini dirçəltmək və itirdiklərini maksimum dərəcədə geri qaytarmaq üçün qiymət artımına üstünlük verir. Belə halda isə dünyada istehsal və xidmət sahələrində də qiymətlərin artması qaçılmaz olur.

Azərbaycan da dünya iqtisadi proseslərinin bir parçası olduğu üçün bundan yayına bilməz. Cari il oktyabrın 16-sında imzalanan iki mühüm sənəd dünyada baş verən həmin proseslərlə bağlıdır. Prezident İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı da məhz Tarif (qiymət) Şurası tərəfindən əhaliyə satılan qaz və enerjinin qiymətlərini qarşılamağa xidmət edir. Dövlət bu yolla əhalini kommunal xərclərinin artmasından qoruyacaq. Məqsəd əhalinin qiymət artımından ziyan çəkməsinə yol verməməkdir.

Dövlət başçısı imzaladığı bu sərəncamda məqsəd və məramını aydın şəkildə bildirir. Sənəddə qeyd edilir ki, məqsəd beynəlxalq bazarlardakı proseslərin ölkədaxili qiymətlərə sirayət etməsinin ölkə əhalisinə, xüsusilə həssas əhali qrupuna mənfi fəsadlarını yumşaltmaq və əhalinin sosial müdafiəsini gücləndirməkdir. Dövlət başçısı Nazirlər Kabinetinə tapşırıb ki, əməkhaqlarının, əmək pensiyalarının və sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğinin artırılmasının təmin edilməsi ilə bağlı 2022-ci ilin dövlət büdcəsi layihəsində müvafiq tədbirlərin əks etdirilməsi üçün təkliflərini hazırlayıb təqdim etsin.

Ardı 8-ci səh.



# Slovakiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçoku qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Slovakiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib, siyasi təmasların fəal şəkildə olduğu bildirilib. Bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub.

Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçok ölkəsinin Azərbaycanı iqtisadi əməkdaşlıq üçün yaxşı imkanlara malik olan bir ölkə kimi qəbul etdiyini vurğulayıb və bildirib ki, Slovakiya tərəfi Azərbaycanla iqtisadi əlaqələrin inkişafı istiqamətində səylərin Prezident İlham Əliyev tərəfindən dəstəklənməsinə böyük önəm verir. Qonaq iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsinin əhəmiyyətinə toxundu. İvan Korçok Slovakiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq və yenidənqurma layihələrində yaxından iştirak etməkdə maraqlı olduqlarını bildirib.

Qonaq qeyd edib ki, Slovakiya dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə sadiqdir və bu əsasda ölkəsi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq və ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb

### Görüşdə Azərbaycan hökuməti ilə Slovakiya hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında saziş imzalanıb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 19-da Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçok ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında fəal siyasi dialoqun aparıldığı vurğulanıb. Azərbaycanın Avropa İttifaqına (Aİ) üzv ölkələrlə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğu bildirilib.

Azərbaycan ilə Slovakiya arasında iqtisadi-ticari, enerji, nəqliyyat, tranzit, investisiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Baş nazir Ə.Əsədov Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin, o cümlədən Zəngəzur dəhlizinin Slovakiya və Aİ üçün maraqlı olacağını vurğulayıb, rəqəmsal və yaşıl iqtisadiyyat sahələrində əməkdaşlıq imkanlarının olduğunu qeyd edib. Qeyd edilib ki, Azərbaycan Slovakiya da daxil olmaqla dost ölkələrin şirkətlərinin işğaldan azad edilmiş torpaqların bərpasında iştirakında maraqlıdır.

Xarici və Avropa işləri naziri İvan Korçok Slovakiyanın Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini, yaxşı siyasi münasibətləri iqtisadi sahəyə də şamil etməyin vacibliyini vurğulayıb.

Sonda Azərbaycan hökuməti ilə Slovakiya hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında saziş imzalanıb. Sazişi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçok imzalayıblar.

Sazişə əsasən, ikitərəfli iqtisadi əməkdaşlığın əlaqələndirilməsi və təşviq edilməsi məqsədilə İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Slovakiya Birgə İşçi Qrupun yaradılması nəzərdə tutulub.

## M.A.Əliyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Abış oğlu Əliyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2021-ci il*

## V.F.Ələsgərovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Valeh Feyruz oğlu Ələsgərov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2021-ci il*

## “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 yanvar tarixli 1249 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 19, № 3, maddə 231) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1-ci bənddə “6 (altı)” sözləri “4 (dörd)” sözləri ilə əvəz edilsin;

1.2. 6.1.5-ci yarımbənd ləğv edilsin;

1.3. 6.2.1-ci yarımbənd 6.2.2-ci yarımbənd hesab olunsun və aşağıdakı məzmunda 6.2.1-ci yarımbənd əlavə edilsin:

“6.2.1. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;”;

1.4. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi” üzrə:

1.4.1. 4.4-cü bənddə “6 (altı)” sözləri “4 (dörd)” sözləri ilə əvəz edilsin;

1.4.2. 4.7.4-sü yarımbənddə “və əməyin ödənişi fondunu təsdiq etmək, işçilərinin say həddinə və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinə dair təkliflər vermək” sözləri “, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək” sözləri ilə əvəz edilsin;

1.4.3. 4.19-cu bəndin üçüncü cümləsində “iki” sözü “bir” sözü ilə əvəz edilsin;

1.4.4. 4.20-ci bənddə “, müvafiq əmrlə onun müavinlərindən biri onu əvəz” sözləri “onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra” sözləri ilə əvəz edilsin;

1.4.5. 4.21-ci bənddə “müavinləri” sözü “müavini” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 oktyabr 2021-ci il*



# Xorvatiya şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərində iştirakda maraqlıdırlar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Xorvatiyanın xarici və Avropa işləri üzrə naziri Qordan Grliç Radmanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nazir Qordan Grliç Radman Xorvatiya rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Xorvatiya rəhbərliyinə çatdırmağı xahiş edib.

Görüşdə Qordan Grliç Radmanın Azərbaycana səfərinin ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılması üçün yaxşı imkan yaratdığı bildirilib, Azərbaycan-Xorvatiya əlaqələrinin inkişafından məmnunluq ifadə edilib, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu vurğulanıb, turizm sahəsində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb, enerji, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Söhbət zamanı Xorvatiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərində iştirakda maraqlı olduqları bildirilib.

Görüşdə həmçinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı məsələlərinə toxunulub və Xorvatiyanın bu məsələdə hər zaman Azərbaycanı dəstəklədiyi vurğulanıb.

# *Ceyhun BAYRAMOV:* “Azərbaycanla münasibətlərin normallaşdırılması üçün Ermənistan üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərinə əməl etməlidir”

“Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasının tərəfdarıdır. Bunun üçün Ermənistan üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə əməl etməlidir. Azərbaycan öz tərəfindən üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir”.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçokla keçirdiyi birgə brifinqdə bildirib.

C.Bayramov vurğulayıb ki, postmünaqişə dövründə Azərbaycan tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində genişmiqyaslı layihələrə start verilib. Bu sahədə vacib istiqamətlərdən olan ərazilərin minalardan təmizlənməsi işində Azərbaycanla Slovakiya arasında əməkdaşlığa başlanılıb. Yaxın vaxtlarda Slovakiyadan Azərbaycana 7 ədəd minatəmizləyən aparat göndəriləcək.

Xarici işlər naziri həmçinin bildirib ki, işğaldan azad olunmuş ərazilərin bərpası və oraya əhalinin qaytarılması ölkəmiz üçün prioritet məsələdir. Hazırda bu sahədə layihələr həyata keçirilir.

Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında sazişin imzalanması nəzərdə tutulur. C.Bayramov deyib ki, ölkələrimiz arasında ikitərəfli və beynəlxalq platformalarda əməkdaşlığın perspektivləri, iqtisadi sahədə münasibətlərin potensialı müzakirə edilir.

Bildirilib ki, ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən 10-dan çox saziş hazırda Azərbaycan və Slovakiya tərəfində baxılmaqdadır.

# *Slovakiya XİN-in rəhbəri:* “Azərbaycan etibarlı tərəfdaşdır”



“Azərbaycanla Avropa İttifaqı arasında imzalanacaq sazişi dəstəkləyirik. Ölkəniz siyasi, iqtisadi müstəvilərdə Avropa İttifaqı ilə əməkdaşlıq edir. Azərbaycan etibarlı tərəfdaşdır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Slovakiya Respublikasının xarici və Avropa işləri naziri İvan Korçok Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə keçirdiyi birgə brifinqdə söyləyib.

O qeyd edib ki, azərbaycanlı həmkarı ilə görüşdə iki ölkə arasında münasibətlər, o cümlədən müharibədən sonra Qarabağdakı vəziyyət nəzərdən keçirilib. Bildirib ki, ən ağır münaqişələrdə belə beynəlxalq hüququn normaları gözlənilməlidir. Xalqlar, müxtəlif etnik qruplar sülh içində yaşamalıdır. Ötən ilin noyabrında imzalanan üçtərəfli bəyanat bu istiqamətdə zəmin yaradıb.

Nazir həmçinin vurğulayıb ki, Slovakiya ilə Azərbaycan arasındakı müsbət münasibətlər daha da genişləndirilməlidir.

# Azərbaycanın xarici işlər naziri NATO-nun xüsusi nümayəndəsi ilə görüşüb

Oktyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina Pirizin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Azərbaycanın NATO ilə qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini bölüşdüyünü ifadə edərək, bir sıra istiqamətlərdə həyata keçirilən əməkdaşlığı məmnunluqla qeyd edib. Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu vurğulayan nazir beynəlxalq təhlükəsizliyin təmin olunmasında bölüşülən dəyərləri və bu xüsusda Azərbaycan sülhməramlılarının NATO əməliyyatlarında iştirakını qeyd edib. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı NATO-nun zirvə görüşləri nəticəsində qəbul edilmiş birgə bəyanatlarında tərəfdaş ölkələrin suverenliyi və ərazi bütövlüyünə verdiyi dəstək mövqeyinin tərəfimizdən yüksək qiymətləndirildiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Nazir Ceyhun Bayramov NATO-nun xüsusi nümayəndəsinə bölgədə mövcud olan ən son vəziyyət, o cümlədən Ermənistan tərəfindən onilliklər ərzində həyata keçirilmiş tarixi-mədəni və dini irsimizin məqsədyönlü dağıdılması siyasəti, qeyri-qanuni fəaliyyət və nəticələri, hazırda Azərbaycan hökuməti tərəfindən azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, habelə ərazilərin minalardan təmizlənməsi, üçtərəfli bəyanatların icrası ilə bağlı Azərbaycan tərəfindən görülən işlər barədə ətraflı məlumat verib. Ərazilərimizin işğalı amilinin aradan qaldırılması ilə Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğu NATO rəsmisinin diqqətinə çatdırılıb.

Xüsusi nümayəndə Xavyer Kolomina Piriz bölgəyə reallaşdırdığı səfəri çərçivəsində Azərbaycan tərəfi ilə müzakirələrin bölgədəki cari vəziyyətlə bağlı ətraflı məlumatın əldə edilməsi baxımından çox faydalı olduğunu bildirib. Azərbaycan sülhməramlılarının Türkiyə qüvvələri ilə birgə Əfqanıstanda fəaliyyəti, xüsusilə də Kabil hava limanından vətəndaşların təxliyəsi ilə bağlı fəaliyyəti yüksək qiymətləndirilib və bununla bağlı xüsusi nümayəndə müttəfiq ölkələrin adından təşəkkürünü ifadə edib. O, NATO-nun Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini vurğulayıb.

Görüşdə tərəflər həmçinin NATO-Azərbaycan tərəfdaşlıq gündəliyi, habelə gələcək perspektivlər üzrə fikir mübadiləsi aparıblar.

# Səfir: “Yunanıstan Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir”

Oktyabrın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkos ilə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Sədri görüşdə iki ölkə arasında siyasi, iqtisadi, humanitar sahələrdə mövcud olan münasibətlər haqqında fikirlərini bildirib. O, əlaqələrin inkişafında qanunverici orqanların rolundan danışaraq, hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edib.

Sahibə Qafarova səfirə Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində qazandığı Zəfər və regionda yeni yaranmış şərait haqqında geniş məlumat verib. Parlament sədri diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Azərbaycan bununla həm də öz gücü hesabına BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirib.

Qarabağ münaqişəsinin artıq tarixə çevrildiyini və ölkəmiz üçün yeni mərhələnin başlandığını bildirən Milli Məclisin Sədri qeyd edib ki, hazırda Azərbaycan Ermənistanın işğalı dövründə tamamilə dağıdılmış Vətən müharibəsində işğaldan azad edilmiş bütün ərazilərimizi bərpa edir, yenidən qurur. O vurğulayıb ki, Azərbaycan regionda sülh və təhlükəsizliyin təmin olunmasının tərəfdarıdır. Azərbaycan əməkdaşlığa açıq, multikultural ölkədir.

Görüşə görə minnətdarlığını bildirən səfir Nikolaos Piperiqkos Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə təbriklərini çatdırıb. Səfir ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirib və parlamentlərin bu prosesdə iştirakının mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

# Müdafiə naziri yeni yaradılan komando hərbi hissəsində olub





Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində fəaliyyətlər davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 19-da müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni yaradılmış əməliyyat (komando) hərbi hissəsində olub.

Açılış mərasiminə dəvət olunan Vətən müharibəsi qaziləri ilə görüşən müdafiə naziri onların problemləri və istəkləri ilə maraqlanıb.

Sonra Türkiyədə uzunmüddətli “Komando hazırlığı kursu” keçmiş şəxsi heyətə beretlərin təqdim edilməsi mərasimi keçirilib.

Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla hazırlanmış hərbi qulluqçulara beretlər təqdim olunub.

Mərasimdə çıxış edən müdafiə naziri Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının daha da yüksəldilməsinə böyük töhfə verən bu kimi kursların davam etdiriləcəyini qeyd edib.

Hərbi hissənin ərazisindəki təlim mərkəzinə baxış keçirən nazir komandoların nümunəvi çıxışlarını izləyib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birgə nahar edib.

# Sahibə Qafarova Parlament Sədrlərinin Avropa Konfransında iştirak edəcək

Oktyabrın 20-də Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyəti Parlament Sədrlərinin Avropa Konfransında iştirak etmək üçün Yunanıstanın paytaxtı Afina şəhərinə səfər edəcək.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputat Cavanşir Feyziyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Sahibə Qafarova konfransda çıxış edəcək, müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirəcək. Parlament sədrinin tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşü nəzərdə tutulub. Görüşlərdə ikitərəfli və çoxtərəfli formatda əlaqələrin inkişafı, əməkdaşlığın gələcək inkişaf istiqamətləri və digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

Səfər oktyabrın 22-də başa çatacaq.

# Beyləqan rayonunda şəhid ailələri ziyarət olunub

Beyləqan rayonunun Şəfəq qəsəbəsində və İkinci Şahsevən kəndində Vətən müharibəsi şəhidləri Əlizadə Toğrul Rafiq oğlunun, Əliyev Elşən Novruz oğlunun və Teymurov Mansur Elnur oğlunun anım mərasimləri keçirilib.



AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin müavini Adil Əliyev, deputat Şahin İsmayılov, Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, hüquq-mühafizə orqanlarının rəhbərləri şəhidlərin məzarlarını ziyarət edib, qəhrəman vətən övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.

Şəhid ailələri ilə keçirilən görüşdə 44 günlük Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan şərəfli ömür yolundan danışılıb, xatirələrinin qəlblərdə əbədi yaşayacağı vurğulanıb. Azərbaycan ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək vəzifə borcunu ləyaqət və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirdiklərinə görə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölümlərindən sonra təltif olunmuş şəhidlərin medalları onların atalarına təqdim edilib.

Şəhidlərin ailə üzvləri onlara göstərilən hərtərəfli dövlət qayğısına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Serjan ABDIKARİMOV: “Azərbaycanın Vətən müharibəsindəki qələbəsi ədalətin zəfəridir”

Oktyabrın 19-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov Şimali-Xəzər və Qaraçaqanaq layihələrində hasilatın pay bölgüsünə dair Qazaxıstan hökumətinin səlahiyyətli orqanı olan “PSA” Səhmdar Cəmiyyətinin nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri qonaqları qalib Azərbaycanın parlamentində salamlamaqdan məmnunluğunu ifadə edib. Vətən müharibəsində Azərbaycanın zəfərini türk dünyasının qələbəsi kimi qiymətləndirən Sadiq Qurbanov Qazaxıstan dövlətinin, siyasi və ictimai xadimlərinin haqq işimizə göstərdiyi dəstəyi minnətdarlıqla xatırlayıb.

O, Azərbaycanla Qazaxıstanı birləşdirən çoxəsrlik tarixi və mədəni əlaqələrdən, ortaq dəyərlərdən danışaraq Ümummilli Lider Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti - elbası Nursultan Nazarbayev tərəfindən əsası qoyulan əməkdaşlığın dövlət başçılarımız tərəfindən hazırda da müvəffəqiyyətlə davam etdirildiyini vurğulayıb. O, beynəlxalq təşkilatlar, xüsusən də Türk Şurası çərçivəsində əməkdaşlığımızdan məmnunluğunu ifadə edib. Ölkələrimizin iqtisadi əlaqələri, xüsusən də neft-qaz hasilatındakı birgə fəaliyyəti və təcrübə mübadiləsinə toxunan komitə sədri bu ənənənin davam etdirilməsini yüksək dəyərləndirib.

Görüşdə iştirak edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov müasir dünyada enerji resurslarının rolundan, Azərbaycanın enerji təhlükəsizliyi siyasətindən bəhs edib, bu sahədə perspektiv imkanlardan danışıb.

“PSA” Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri İzbastin Beket, səhmdar cəmiyyətin əməkdaşları Dias İbraşev, Ruslan Balıkbayev və Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov ölkəmizin Vətən müharibəsindəki qələbəsini ədalətin zəfəri kimi dəyərləndirib, təbriklərini çatdırıblar. Qonaqlar hasilatın pay bölgüsü layihələri üzrə idarəetmə metodları, yaranan mübahisələrin həlli yolları, bu sahə üzrə qanunvericilik bazası və onun təkmilləşdirilməsi kimi məsələlərlə bağlı Azərbaycanın təcrübəsi ilə maraqlanıblar.

Görüşdə Milli Məclisin deputatı Əliabbas Salahzadə, “PSA” Səhmdar Cəmiyyətinin əməkdaşı Baqdat Kujatov və digər rəsmi şəxslər də iştirak ediblər.

# “Hasilat Sənayesində Şəffaflıq” portalının təqdimatı olub

Oktyabrın 19-da Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində “Hasilat Sənayesində Şəffaflıq” portalının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və Dövlət Neft Şirkətinin vitse-prezidenti Süleyman Qasımov çıxış ediblər.

Qeyd olunub ki, Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün tətbiqində pilot ölkə olmaqla Azərbaycan Respublikası hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə beynəlxalq səyləri daim dəstəkləyib, 2003-cü ildə “Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü”nə qoşulub, 2005-ci ildə dünyada ilk dəfə şəffaflıq təşəbbüsü üzrə hesabatı açıqlayıb. Hasilat sənayesində şəffaflığın təmin olunması sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilib, Azərbaycan Respublikası BMT-nin “Dövlət Xidmətləri Mükafatı”na və “2009-cu il üzrə Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü Mükafatı”na layiq görülüb. Bununla yanaşı vurğulanıb ki, son illərdə hesabatlılığı təşviq edən beynəlxalq prinsip və standartlarda hesabatvermə mexanizmlərinin səmərəliliyinin artırılması və daha çevik işləməsi məqsədilə mühüm dəyişikliklər edilib. Bu dəyişikliklərdən biri də dövlət idarəçiliyində müasir texnologiyalardan istifadə etməklə aparılan işin səmərəliliyini artırmaq, məlumatlardan istifadə imkanlarını sadələşdirmək, məlumatları sərbəst əldə etmək üçün şəffaflıq və hesabatlılığın müntəzəmliyini təmin etmək məqsədilə hesabatlılığın aidiyyəti dövlət qurumlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi yolu ilə tədricən onların açıqlama və hesabatvermə sistemlərinə inteqrasiya olunmasıdır. Bununla əlaqədar “Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 iyul tarixli fərmanı ilə hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığı və bu sahədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq üzrə hesabatların davamlı toplanmasını və toplanmış hesabatlar əsasında statistika məlumatlarının ictimaiyyətə açıqlanmasını təmin etmək Dövlət Statistika Komitəsinə həvalə edilib.

Daha sonra Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov hasilat sənayesində şəffaflıq üzrə hesabatların toplanması və ictimaiyyətə açıqlanmasını təmin etmək məqsədilə həyata keçirilmiş tədbirlər barədə iştirakçılara məlumat verib. Bildirilib ki, ilkin mərhələdə hasilat sənayesində şəffaflıq üzrə statistik göstəricilər sistemi hazırlanıb, aidiyyəti qurumlarla razılaşdırılaraq komitə tərəfindən təsdiq edilib, növbəti mərhələdə isə aidiyyəti dövlət orqanlarından və hasilat sənayesi ilə məşğul olan müəssisələrdən göstəricilər sistemi əsasında məlumatlar toplanıb. Toplanmış məlumatların müasir texnoloji vasitələrlə istifadəçilərə çatdırılması məqsədilə “Hasilat Sənayesində Şəffaflıq” portalı hazırlanıb. Vurğulanıb ki, portal hasilat sənayesi sahəsində statistik məlumatların ictimaiyyətə, o cümlədən dövlət qurumlarına, özəl sektor, elm və təhsil müəssisələrinə, vətəndaş cəmiyyəti institutlarına, kütləvi informasiya vasitələrinə, regional və beynəlxalq təşkilatlara çatdırılması üçün əlverişli informasiya mühiti yaratmaqla virtual körpü rolunu oynayacaq.

Dövlət Statistika Komitəsinin Sənaye və tikinti statistikası şöbəsinin müdiri Elman Qasımzadə portalın təqdimatını həyata keçirib.

Mərasimin sonunda tədbir iştirakçılarını və KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# Ankarada Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin komitələri arasında üçtərəfli görüş keçirilib

Ankarada Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Sevinc Fətəliyeva, Tural Gəncəliyev və Sahib Alıyev daxildir.

Türkiyə Böyük Millət Məclisində keçirilən görüşdə digər heyətlərə TBMM-nin komitə sədri Akif Çağatay Kılıç, Gürcüstan parlamentinin komitə sədri Nikoloz Samkharadze rəhbərlik ediblər.

Komitələrin birgə toplantısında regional və parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, qanunvericilik sahəsində informasiya və təcrübə mübadiləsi, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəni əlaqələrin inkişafı və digər məsələlər müzakirə olunub.

Sonda Azərbaycan, Türkiyə və Gürcüstanın parlament komitə sədrlərinin birgə mətbuat konfransı keçirilib.

Qeyd edək ki, Azərbaycanın parlament nümayəndə heyətinin Türkiyəyə səfəri oktyabrın 20-də başa çatacaq.




# “Məşğulluq marafonu”na qoşulan işəgötürənlərin sayı 558-ə çatdı

Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək vermək üçün “Məşğulluq marafonu”nda iştirak edən işəgötürənlərin sayı artmaqda davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan marafona indiyədək 558 işəgötürən (292-i dövlət, 266-ı isə özəl) qoşularaq 3057 vakansiya təqdim edib.

Həmin vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 906 nəfər (145 şəhid ailəsi üzvü və 761 qazi) işlə təmin olunub. Hazırda bu kateqoriyalardan olan vətəndaşlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

“Məşğulluq marafonu”na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

*“Azərbaycan”*

# Azərbaycanda keçən ilin eyni dövründəkinə nisbətən neft hasilatı artıb

*Əvvəli 1-ci səh.*

“Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarından hasilat təhlükəsiz şəkildə davam edir. Bu ilin birinci yarısında AÇG-dən ümumi hasilat təxminən 85 milyon barel, yəni 11 milyon ton olub. Gündə AÇG-dən ümumilikdə orta hesabla 468 min barel - “Çıraq” platformasından 30 min, “Mərkəzi Azəri”dən 111 min, “Qərbi Azəri”dən 118 min, “Şərqi Azəri”dən 78 min, “Dərinsulu Günəşli”dən 88 min və “Qərbi Çıraq”dan 43 min barel neft çıxarılıb.

AÇG yataqlar blokunda 131 neft hasilatı quyusu, 44 su injektor quyusu və 8 qaz injektor quyusu istismar olunur. Birinci yarımildə burada 6 neft hasilatı və 3 suvurma quyusu qazılıb. Bu dövrdə AÇG-dən SOCAR-a, əsasən, Səngəçal terminalı, həmçinin “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 9,1 milyon kubmetr, ümumilikdə isə 1,6 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

“Şahdəniz” yatağından da hasilat ahəngdar davam edir və çıxarılan mavi yanacaq Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a ) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə çatdırılır. “Şahdəniz” qazı 2020-ci ilin son günündən başlayaraq Avropa bazarlarına da ixrac edilir.

İlin ilk altı ayı ərzində yataqdan ümumilikdə - “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından birlikdə 10 milyard standart kubmetr qaz və təqribən 1,9 milyon ton (15,1 milyon barel) kondensat hasil olunub. Mövcud “Şahdəniz” qurğularının hasilat gücü hazırda gündə təxminən 70 milyon (ildə 25 milyarddan artıq) standart kubmetrdir.

Prezident İlham Əliyev ölkənin neft-qaz sənayesi qarşısında köhnə yataqları da yaddan çıxarmamaq, hasilatı sabit saxlmaq üçün müntəzəm tədbirlər görmək vəzifəsini qoyub. Azərbaycan neftçiləri bu vəzifənin də öhdəsindən layiqincə gəlirlər.

SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) dənizdə və quruda onilliklərdir istismar olunan yataqlarda işi uğurla davam etdirir. Hasilatı sabit saxlamaq üçün yeni texnika və texnologiyalardan, bütün mümkün vasitə və tədbirlərdən istifadə olunur. Nəticədə hətta hasilatın artması da müşahidə edilir.

Qazma işləri də ardıcil şəkildə aparılır. Məsələn, bu ilin doqquz ayında qazma üzrə artıma nail olunub. Belə ki, şirkət üzrə 20 min metrdən artıq qazma işi həyata keçirilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 82 faiz çoxdur.

SOCAR-ın istismar etdiyi yataqlarda sözügedən dövrdə 2 milyon tona yaxın neft və 2 milyard kubmetrə yaxın qaz çıxarılıb. Beləliklə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatı 10, qaz hasilatı isə 9 faiz artıb. Bu da şirkətin istismar etdiyi neft və qaz yataqlarında hasilat səviyyəsinin sabit saxlanılması məqsədilə həyata keçirilən kompleks tədbirlər planının davamlı şəkildə icra olunduğunu bir daha təsdiqləyir.

Qeyd edək ki, cari ilin üçüncü rübündə ölkə üzrə 8,7 milyon tona yaxın neft, 11,3 milyard kubmetrdən artıq qaz hasil edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatında 6, qaz hasilatında 38,6 artım deməkdir. Onu da diqqətə çatdıraq ki, neft hasilatının artımı əsasən OPEC+ razılaşması çərçivəsində hasilata tətbiq olunan məhdudiyyətlərin nisbətən yumşaldılması ilə bağlı olub.

***Flora SADIQLI,***
***“Azərbaycan”***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

Əvvəli 1-ci səh.

Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!"

### 1400 ilə yaxın yaşı olan qədim türk torpağı

Azərbaycanın cənub-qərbində Ermənistan və İranla sərhəddə yerləşən Zəngilan rayonu strateji cəhətdən böyük əhəmiyyət kəsb edən mövqedə yerləşir. Tarixi məlumatlar azad edilmiş digər ərazilər kimi Zəngilanın da qədim Azərbaycan torpağı olduğunu sübut edir. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Deməli, Zəngilanın təqribən 1400 ilə yaxın yaşı var.

Tarix üzrə fəlsəfə doktoru Elçin Vəliyev bildirir ki, Zəngilan tarixən türk tayfalarının məskunlaşdığı ərazi olub. Rayonun toponimi də bunu birmənalı şəkildə təsdiq edir. Zəngilanın adı burada yaşayan türk tayfalarının - əvvəllər adı "sanqi" şəklində yazılan zəngilərin adından götürülüb. Zəngibasar bölgə adının ortaya çıxmasına səbəb olan Zəngi çayı da vaxtilə öz adını ərazidə məskunlaşmış zəngi boyundan alıb. Zəngilər təkcə Ağrı vadisində deyil, həm də Zəngi (Zəngibasar) bölgəsində yaşayıblar. Ümumiyyətlə, İrəvan mahalının digər qədim tayfaları kimi, zəngi boyları da sonralar geniş ərazilərə yayılıb. Zəngilər haqqında Asur mənbələrində də məlumat verilib. Asur qaynaqları zəngilərin, eyni zamanda, Urmu gölündən aşağıda yaşadığını açıqlayıb.

E.Vəliyev əlavə edir ki, Zəngilan rayonunun ərazisi müxtəlif dövrlərdə ayrı-ayrı inzibati bölgülərə məruz qalıb. 1828-ci ilə qədər bölgənin ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığının tərkibinə idi. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılır. 1868-ci ildə Yelizavetpol quberniyası yaradılır. Onun tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılır. Yeni bölgüyə əsasən, Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilir.

Tarixçi alim xatırladır ki, 1929-cu ildə Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının qərarı ilə Zəngilan rayonunun Nüvədi, Toğud, Ernəzir kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Azərbaycandan alınıb Ermənistana bağışlanıb. Son iki yüz ildə vahid sərhədə malik olmayan Zəngilan 1930-cu ilin avqust ayının 8-də müstəqil rayon kimi formalaşıb və onun dəqiq müəyyən olunmuş ərazisi olub. 1967-ci ildə Zəngilana şəhər statusu verilib.

Rayon 1993-cü ilin oktyabr ayında Ermənistan qoşunları tərəfindən işğal olunub. Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 60 gündən çox tam mühasirə şəraitində ermənilərlə vuruşublar. Zəngilanın işğala məruz qalan ən sonuncu rayon olduğunu söyləyən Elçin Vəliyev vurğulayır: "Nəhayət, 27 ildən sonra Zəngilan düşmən tapdağından xilas oldu. Oktyabrda işğal edilən Zəngilan elə oktyabrda da işğaldan azad edildi. Çox xoşbəxtik ki, möhtərəm Prezident İlham Əliyev bizə bu möhtəşəm tarixi yaşamağı qismət etdi. Mən bütün zəngilanlılar adından cənab Prezidentə təşəkkür edirəm. Dövlət başçısı bizə bu xoşbəxtliyi özünün qətiyyətli, məqsədyönlü siyasəti nəticəsində bəxş etdi".

### Zəngilandan sonra yol Qubadlıya idi

Füzulinin, Cəbrayılın işğaldan azad edilməsindən sonra başlanılan Zəngilan döyüşləri Vətən müharibəsinin ən uğurlu, düşmənin ən çox itki verdiyi və uzun müddət davam edən hərbi əməliyyatlarındandır. Ümumilikdə, Zəngilan rayonunun bütün ərazisi uğrunda döyüşlər müharibənin son gününədək aparılıb və 9 noyabrda rayonun 6 yaşayış məskəni azad edilib. Vətən savaşında Zəngilanın şəhər mərkəzi, 3 qəsəbəsi və 52 kəndi düşmən tapdağından xilas edilib.



## 25 gündə 27 illik işğala son qoyuldu

### İlham Əliyev Zəngilanı bölgənin mühüm nəqliyyat-logistika qovşağına çevirir

Azərbaycan Ordusunun Ali Baş Komandanın əmrləri ilə apardığı Zəngilan əməliyyatlarının ilk mərhələsi oktyabrın 18-də başlayıb, iki gün sonra - oktyabrın 20-də uğurla başa çatıb. Oktyabrın 22-də isə rayonun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Arazboyu hərbi əməliyyatlar yekunlaşıb. Bununla da Azərbaycan-İran sərhədi tam nəzarətə götürülüb. Zəngilan uğrunda uğurla aparılan döyüşlər böyük əzmkarlıqla döyüşən Azərbaycan Ordusunu daha irəliyə - Qarabağın cənubuna, Zəngilanın kəndlərinə və Qubadlı rayonu ərazisinə doğru istiqamət götürməsinə imkan yaradıb.

Hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Zəngilanın azad edilməsi üçün oktyabrın 18-dən başlayan döyüşlərə, əsasən, Azərbaycan Sərhəd Qoşunlarının komandanlığına tabe olan hərbi hissə və bölmələr cəlb edilmişdi. İki gün davam edən gərgin döyüşlərdən sonra Zəngilan şəhəri düşmən işğalından tamamilə azad edilib. Zəngilanın azad edilməsi ilə Azərbaycan həm İranla, həm də Ermənistanla olan dövlət sərhədlərini bərpa etməyə nail olub.

Ekspertin fikrincə, Zəngilanın ərazisində hazırda inşa edilən müxtəlif təyinatlı obyektlər, rayon və respublika əhəmiyyətli yollar, o cümlədən hava limanı bu rayonda fəaliyyət göstərən və sərhədlərin təhlükəsizliyini təmin edən strukturların fəaliyyətinə müsbət təsir edəcək: "Zəngilandakı hava limanından həm də hərbi yüklərin daşınması üçün istifadə ediləcək. Rayonun digər qonşu rayonlarla əlaqəsini təmin edəcək magistral yolların inşası isə Silahlı Qüvvələrin həm Qarabağ, həm də Şərqi Zəngəzur ərazisində manevr imkanlarını genişləndirəcək. Dövlətimizin apardığı uğurlu fəaliyyət nəticəsində düşmənin 27 il ərzində tamamilə xarabaya çevirdiyi Zəngilan rayonu yaxın illərdə beynəlxalq əhəmiyyətə malik nəqliyyat və logistika mərkəzlərindən birinə çevriləcək".

### Zəngilan Böyük qayıdış proqramının başlanğıcını formalaşdıracaq

İndi təkcə zəngilanlılar deyil, bütün məcburi köçkünlər Böyük qayıdışın astanasındadırlar. Zəngilan işğaldan azad edilmiş rayonlar arasında yenidənqurma işlərinə ən tez başlanılan ərazilərdəndir. Artıq Qubadlı, Kəlbəcər, Laçınla yanaşı, Zəngilanın da baş planı hazırlanır. Yenidənqurma işlərinin ən innovativ layihələr əsasında həyata keçirildiyi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən "Ağıllı kənd" pilot layihəsi icra edilir. Layihə əsasən, 5 komponent - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə reallaşdırılır. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub.







İşğaldan azad edilmiş ərazilərdə inşa edilən ikinci beynəlxalq hava limanı da Zəngilandadır. Laçın, Füzuli hava limanları kimi, Zəngilan hava limanının da inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına səbəb olacaq. Bu hava limanları yükdaşıma, sərnişin xidmətləri göstərməklə yanaşı, hərbi məqsədlər üçün də istifadə ediləcək. Bütün bu işlər yalnız Azərbaycan dövlətinin vəsaiti hesabına, başqa ölkələrdən heç bir kredit götürülmədən icra edilir. Dövlət başçısının düşünülmüş iqtisadi siyasəti bu gün dövlətə Qarabağ və ətraf rayonlarda yenidənqurma işlərini öz maliyyə imkanları hesabına aparmağa imkan verir. Çünki Azərbaycan ötən illər ərzində yalnız ordunu gücləndirmək üçün maliyyə resursları yaratmayıb. Düşməni gec-tez torpaqlarımızdan qovacağına əmin olan Azərbaycan hələ müharibə başlamamışdan əvvəl azad ediləcək ərazilərdə quruculuq, bərpa işlərinin aparılması üçün maliyyə resursları yaratmaqla postmüharibə dövrünə hazırlaşıb.

Erməni qəsbkarlarının tamamilə dağıtdığı Zəngilan bu gün yenidən qurulmaqla ona qovuşmaq arzusunda olan sakinlərinin görüşünə hazırlaşır. Dövlətimizin maliyyə dayanıqlığı, görülən işlərin sürəti Zəngilan köçkünlərinin tezliklə öz doğma yurdlarına qayıdacağına təminat verir.

Prezident İlham Əliyev artıq zəngilanlılara şad xəbər verərək bu rayona ilk köçkünlərin qısa müddətdə köçəcəyini açıqlayıb: "Zəngilan rayonundakı "smart village" - "ağıllı kənd" kimi nöqtəvi layihələr var. İndi digər rayonların hərəsində bir pilot layihə həyata keçirəcəyik ki, insanları qaytara bilək. Mən vaxt müəyyən etmək istəmirəm, lakin düşünürəm ki, - düşünürəm yox, lap dəqiq deyirəm, - Zəngilana ilk köçkünlər gələn il, bəlkə də bu ilin sonuna qədər köçəcəklər. Başqa kəndlərə də bir il müddətində köçmək olar. İri şəhərlərin bərpası isə yəqin ki, vaxt tələb edəcək, lakin biz bunu mərhələli şəkildə planlaşdıracağıq. Tikinti, məskunlaşma mərhələli şəkildə aparılacaq. Amma bu da çox mürəkkəb işdir, təkcə tikinti baxımından deyil, logistika, insanların iş ilə, dolanışıq vasitələri, torpaq sahələri, texnika ilə təmin edilməsi - bunlar, çox böyük həcmli işlərdir, onu öz vəsaitimiz hesabına yerinə yetiririk, biz hər hansı kreditlər üçün müraciət etməmişik, əgər kimsə kömək etmək istəsə, əlbəttə, şad olarıq, istəməsələr, bu işləri özümüz görməliyik".

Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov deyir ki, Zəngilan rayonu çox yaxın zamanlarda Böyük qayıdış proqramının başlanğıcına çevriləcək: "Azad edilmiş ərazilərimiz arasında ilk məskunlaşdırmanın aparılacağı rayonlardan birinin Zəngilan olacağı gözlənilir. Zəngilan həm də "ağıllı kənd" modelində qurulan ilk pilot rayon olacaq. Artıq bu rayonda "ağıllı kənd"in qurulması işləri başa çatmaq üzrədir".

Zəngilanın iqtisadi potensialının geniş olduğunu nəzərə çarpdıran deputat rayonda bunun üçün kifayət qədər resursların olduğunu söyləyir. İqtisadçı əlavə edir ki, təbii ehtiyatlarına görə Azərbaycanın seçilən bölgələrindən olan Zəngilanda qızıl, mis və digər faydalı qazıntı yataqlarının olması bu rayonun sənaye məhsullarının istehsal potensialını xeyli artırır. Zəngilanda təkcə sənaye üçün deyil, həm də kənd təsərrüfatının inkişafı üçün əlverişli imkanlar var. Hələ işğaldan əvvəlki dövrlərdə bu rayonda heyvandarlıq, o cümlədən aqrar sektor inkişaf edərək iqtisadiyyatda xüsusi paya malik ola bilib. Ona görə də Zəngilanı kənd təsərrüfatı baxımından da vacib rayonlardan birinə çevirmək olar.

Vüqar Bayramov Zəngilanın geniş turizm potensialının olması qənaətindədir: "Zəngilanın təbiəti kifayət qədər cəlbedicidir. Bu rayonda həm qış, həm də yay turizmi üçün imkanlar var. Zəngilandakı dini, mədəni, hətta müalicəvi turizm imkanlarının mövcudluğu bu rayonun turizm potesialının geniş olmasından xəbər verir".

Artıq Zəngilanın bərpa və yenidənqurma mərhələsinə qədəm qoyduğunu nəzərə çatdıran iqtisadçı rayonda infrastrukturun, xüsusilə nəqliyyat və logistika infrastrukturunun formalaşdırılması işlərinin həyata keçirildiyini açıqlayır.

Onun sözlərinə görə, Horadiz-Cəbrayıl-Ağbənd dəmir yolu xətti Zəngilanı Azərbaycanın dəmir yolu xəttinə inteqrasiya edəcək. Eyni zamanda yeni çəkilən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olacaq. Bu yol Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək. Bu baxımdan həmin yol Zəngilanın infrastrukturunun yenidənqurulmasında çox böyük əhəmiyyət kəsb edir. Bu infrastruktur logistik baxımdan da olduqca vacibdir. Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi Zəngilanın nəqliyyat və logistik imkanlarının daha çox istifadəsinə imkan verəcək. Çünki bu gün Zəngilan rayonunda formalaşan infrastruktur, eyni zamanda, Zəngəzur dəhlizinə inteqrasiya olunacaq ki, bu da rayonun strateji əhəmiyyətini artıracaq faktorlardan biridir".

İşğal dövründə Zəngilan ermənilərin məskunlaşdığı ərazilərdən olub. Prezident İlham Əliyevin də dediyi kimi, indiyədək ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra öz evlərimizdə özümüz yaşayacağıq.

Biz ermənilərin viran qoyduğu bu torpaqlara çox qısa zamanda yenidən həyat verəcəyik. Azərbaycanın səfalı məkanlarından olan Zəngilan rayonu tezliklə yenidən qurulacaq, bərpa ediləcək. Çox tezliklə burada tikilən evləri bu torpağın əsl sahibi olan Azərbaycan ailəsinin ocağı qızdıracaq. 30 il əvvəl olduğu kimi, yenə də bu torpaq üzərində Azərbaycan körpəsi böyüyəcək, bu torpağı onu bərəkətli edən, sevgisini ondan əsirgəməyən zəhmətkeş Azərbaycan kəndlisinin alın təri isladacaq, Azərbaycan müəllimi öz şagirdlərinə Qələbə tariximizi burada tikiləcək məktəblərdə öyrədəcək.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***




## Azadlığın mübarək, Zəngilan...

**VƏTƏN! Nədir Vətən? Niyə sevməliyik Vətəni? Beş hərfdən ibarət olan bu kəlmə böyük məna kəsb edir. Vətən mən, sən, o və ən nəhayət, bizik. Kimliyindən, tutduğu mövqeyindən, həyatın bizlərə bəxş etdiklərindən asılı olmadan sevməliyik Vətəni. O Vətən ki, hər qarışı doğma, əzizdir bizlərə. Bir ovuc torpaq olsa belə, bir qarış yer olsa belə, bütövlükdə Vətəndir.**

Vətən doğulub böyüdüyümüz, üzərində yaşadığımız doğma məskəndir, el-obadır, yurddur. Daha sonralar isə "Ana" və "Vətən", bu qoşa kəlmələr yaddaşımıza, hafizəmizə əbədi həkk olundu. Dərk etdik ki, Anasız Vətən, Vətənsiz də Ana olmaz. İkisini eyni dərəcədə sevməli, qorumalı, sahib çıxmalıyıq.

Mənim də Ana Vətənim, yurdum, elim-obam vardı...

Sonralar həsrətimiz, nisgilimiz, qəlbimizdə gəzdirdiyimiz ağrı olan Zəngilan! Əlçatmaz zirvəmiz, başıqarlı uca dağımız idi. Sərv boylu çinarların arasından boylanan yaz günəşi tək qəlbimizi isidir, bütün vücudumuza hakim kəsilirdi o doğma torpaq. Yağışdan sonra torpağından aldığımız qoxu bizi qayğısız uşaqlığımızdan ayrılmamağa səsləyirdi... Yaşadığımız o gözəl hisslər, müqəddəs torpağa olan sevgi bizi doğulduğumuz yerlərə qırılmaz tellərlə bağlayırdı...

Sanki hansısa qüvvə "bu torpaqdan ayrılmaq olmaz, bu el-oba, bu yurd sənin özünsən" söyləyirdi.

Burada deyiblər, sən saydığını say, gör fələk nə sayır... Bəli, fələk arzuları Zəngilanda boy atan o uşaqla, o uşaqlarla çox pis oyun oynadı...

Bəlkə də çoxlarınıza maraqlı gələcək ki, niyə yazımda bir uşaqdan bəhs edirəm? Çünki yaddaşıma Zəngilanda qoyub gəldiyim uşağın siması həkk olunub. Xatirəmdə hələ də arzuları, xəyalları, istəkləri bitib-tükənməyən, "Bir gün olsun belə doğulduğum torpaqdan ayrı qalmaram", - söyləyən 16 yaşlı oğlan qalıb...

28 avqust 1993-cü il. Məhz, sonuncu dəfə bu tarixdə çıxmışam Zəngilandan. Bakıda oxuyurdum. Dərslərin başlamasına 4 gün qalırdı deyə, tez çıxmalı olmuşam rayondan. Zəngilan işğal olunmamışdan düz 2 ay öncə.

16 yaşım tamam olmamışdı hələ. Bəlkə elə buna görə də bu gün Zəngilana o 16 yaşı tamam olmamış bir kənd uşağının gözü ilə baxır, orada yaşadığımız qayğısız günlərimizi düşünürəm. Mənim kimi yüzlərlə uşağın yaşaya bilmədiyi yeniyetmə və gənclik illəri əcaba, necə keçərdi rayonda? Dayanmadan bu sualı verirəm özümə. Bilmirəm, bəlkə də xoşbəxt bir həyat sürərdim, bəlkə də əksi...

16 yaşlı o oğlanı Zəngilanda qoyub gəldim. Hansı ki, böyük həvəslə arzularının arxasınca gələn, bunun müqabilində Zəngilana həsrət qalan, doğma torpağından ayrı düşən, sağollaşmağa, halallıq istəməyə, əlvida söyləməyə macal tapmayan bir uşağın taleyini yaşamalı oldum...

Ömür kitabında yeni səhifə açmaq üçün Bakıya üz tutan 16 yaşlı oğlan yaman tez böyüdü... 1993-cü ilin 29-30 oktyabr tarixləri tək o oğlanın həyatını dəyişmədi. Bu gün Zəngilan həsrəti ilə alışıb-yanan, amansız, fani dünyadan elə o həsrətlə də vaxtsız köç edən neçə-neçə insanın həyatını dəyişdi. Uşaq kimi gəldi, böyüyüb gənc oldu, gənc kimi gələn yaşa doldu, cavan kimi gələn isə vaxtsız olaraq daha da yaşlaşdı.

Vətən həsrəti, Zəngilan nisgili xəncər olub ürəklərə sancıldı. Sağalmayan yara olub illərlə qaysaq bağladı. Hər dəfə Zəngilandan söz düşəndə o yara yenidən qanadı. Zəngilan adlı yaranın bir gün sağalacağına ümid hissi ilə yaşayan insanların həsərti nə az, nə çox düz 27 il çəkdi. Bu müddətdə çox mətləbləri daha yaxşı anladıq...

Anladıq ki, 27 illik bu yara Vətəndə Vətənsiz yaşamaqdır...

Anladıq ki, 27 il doğulub boya-başa çatdığın torpağın hər il işğal gününü qeyd etməkdir...

Anladıq ki, 27 il Zəngilan deyilən zaman gözləri dolmaq, boğazı qəhər boğmaqdır...

Anladıq ki, 27 il əslən zəngilanlı olub, başqa ünvanda dünyaya göz açdığı üçün o yerləri görməməkdir, tanımamaqdır...

Anladıq ki, 27 il Zəngilanlı günləri yada salıb yalnız xatirələrə dalmaq, daxilən əzab çəkməkdir...

Anladıq ki, 27 ildə çəkilən Vətən həsrəti doğulduğun və böyüdüyün yerdən məcburən uzaq yaşamağın yaratdığı əzab və sıxıntıdır...

Anladıq ki, 27 il məcburi köçkün statusunu istəmədən, məcbur olaraq daşımaqdır...

Anladıq ki, 27 il ümidlə gözləmək, sonunda uşaq ikən qoyub gəldiyin o doğma torpağa qayıtmaq istəyidir...

Bəli, deyirlər ümid sonda ölür... 16 yaşlı o oğlanın da ümidi heç zaman ölmədi, həmişə, hər an qəlbində boy atdı, yenidən cücərdi... Bir gün doğma Zəngilana qayıtmaq istəyi bir an olsun belə onu rahat buraxmadı...

Bütün zəngilanlılar kimi, doğma elindən ayrı düşən o uşaq da dövlətinə, onun rəhbərinə, ordusuna inandı, güvəndi... Bildi ki, gün gələcək şadxürrəm ayrıldığı o cənnət-məkana yenidən qayıdacaq...

İndi hamı kimi, o da 2020-ci ilin 20 oktyabr gününü yaddaşına əbədi həkk edib. Çünki oktyabrın 20-si illərdir ayrı düşdüyü doğma Zəngilanın mənfur düşmənin caynağından, tapdağından azad edildiyi gündür. İllərdir özünü Zəngilansız hesab edən 16 yaşlı oğlan sanki yenidən dünyaya göz açıb. Həm də bu dəfə əvvəlki tək Zəngilanlı kimi doğulub.

Bu gün özümü - uşaqlıq arzularının arxasınca gələn 16 yaşlı oğlanı yenidən tapmışamsa, Zəngilansız günlərimi unudub, yenidən zəngilanlı olmuşamsa, buna görə bir ömür boyu borclu və minnətdar olduğumuz insanlar var...

Ömrümün yetdiyi qədər mən və başqaları Zəngilanlı olsun deyə, minlərlə insanın yurd həsrətinə son qoyulsun deyə, övladlarımız, analarımız, bacılarımız daha gözüyaşlı qalmasın deyə, şirin canından, qanından keçən şəhidlərimizə borcluyuq.

Vətənin dar günündə döyüşən, döyüş meydanında şəhidini tək qoymayan, yarasını bağlayıb qan qardaşlarının, can yoldaşlarının qisasını alan, ölməkdən çəkinməyən, ölməsəm də, qazi olsam belə, təki Vətənim bütöv olsun deyən, bu yolda sağlamlığını itirən qazilərimizə borcluyuq.

Ən nəhayət, illərdir doğma Zəngilana qayıtmaq ümidini yaşadan, xalqımıza, zəngilanlılara o ümidi vəd edən və sonda Qələbə sevincini bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə borcluyuq!

Baş Sərkərdəmizin "dəmir yumruğ"u altında tarixi Qələbə, böyük Zəfər əldə edən şanlı ordumuza minnətdarıq. Qalib ölkənin vətəndaşı olaraq minnətdarıq. 27 illik həsrətdən, nisgildən sonra yenidən zəngilanlı olduğumuz üçün minnətdarıq.

Bir vaxtlar arzularının, xəyallarının arxasınca gələn o 16 yaşlı oğlanın adından minnətdaram... Çünki o oğlan Zəngilandan hansı yaşda çıxmışdısa, bu gün də o torpağa həmin yaşda qayıdacaq... Bu gün o oğlan Zəngilanda aparılan abadlıq-quruculuq işlərini qürurla, fəxrlə izləyərək o doğma torpağa Böyük qayıdışı arzularındakı tək xəyal edir. Zəngilanlıların, 16 yaşlı o oğlanın elinə, obasına, doğma yurduna, Zəngilanına qayıdacağı gün isə elə də uzaqda deyil...

Azadlığın mübarək, Zəngilan!

Böyük qayıdışın mübarək, Zəngilan!

***Dönməz ABBASOV***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



*Əvvəli 1-ci səh.*

# 11 ayda 14 səfər

## Prezidentin Qarabağ və Şərqi Zəngəzura səfərləri bu bölgələrin sürətli dirçəlməsinə ən mühüm dəstəkdir

Çünki, xüsusən, hakim yüksəkliklərin düşməndən təmizlənməsi Füzuli şəhəri və onun ətrafındakı erməni mövqelərini dəqiq atəş altında saxlamağa imkan verirdi. Eyni zamanda Cəbrayıl və Hadrutun azad edilməsi düşmənə psixoloji təsir göstərmiş, erməni hərbçiləri arasında fərarilik dəfələrlə artmışdı.

Beləliklə, ötən il oktyabrın 17-də Azərbaycan Ordusu Füzuli şəhərini də işğaldan azad etməklə növbəti strateji uğura imza atdı. Bu, cəbhənin cənub-şərq istiqamətində erməni işğalına son qoyuldu. Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Silahlı Qüvvələrimizin Füzulidə öz tarixi missiyasını yerinə yetirdiyini bildirən Prezident İlham Əliyev dedi: "Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı".

Dövlət başçısının qeyd etdiyi kimi, Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Bundan cəmi bir neçə gün sonra Zəngilan və Qubadlı azad edildi. Füzulinin azad olunması Ermənistan tərəfinin ciddi psixoloji sarsıntısına səbəb oldu, ermənilərin öz ordularının "yenilməzliyi" haqqında yaratdığı mif bir daha darmadağın edildi. Həm şəxsi heyət, həm də texnika sarıdan ciddi itkilər düşmənin döyüş imkanlarına mənfi təsir etdi. Füzuli şəhəri istiqamətində düşmənin çoxlu sayda texnikası, silah-sursatı qənimət götürüldü.

### Füzuli yenidən qurulur

Düşmən 30 ilə yaxın işğalda saxladığı Füzuli rayonunda da tarixdə görünməmiş vandallıq törədib. Rayon mərkəzi və işğal edilmiş bütün kəndlər yerləyeksan olunub. Bu gün rayonun işğaldan azad edilmiş hissəsinə səfər etdikdə istər kəndlərdə, istərsə də Füzuli şəhərinin yerləşdiyi ərazidə erməni vəhşiliyinin izlərini yaxından görmək mümkündür.

Düşmənin vurduğu yaralar sürətlə sağalacaq, Qarabağ və Şərqi Zəngəzur tam bərpa ediləcək. Bu gün Füzuli rayonunda həyata keçirilən bərpa və yenidənqurma işləri də bunu təsdiq edir. Qeyd edək ki, Füzuli düşmən tərəfindən ən çox mina basdırılmış rayondur və bu bərpa və yenidənqurmada ciddi çətinliklər yaradır. Buna baxmayaraq, 11 ayda rayonda xeyli iş görülüb.

Prezident İlham Əliyevin Füzuli rayonuna əvvəlki səfərləri zamanı Füzuli-Şuşa avtomobil yolunun "Zəfər yolu", yeni Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, Füzuli Beynəlxalq Hava Limanının, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyulub, "Füzuli" yarımstansiyasının açılışı olub.

Bu il oktyabrın 17-də isə Füzuli rayonunda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin, Füzuli Memorial Kompleksinin, Füzuli şəhərinin bərpasının və burada salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyuldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanı, həmçinin Füzuli Mərkəzi Şəhər parkında yaradılacaq şəraitlə tanış olublar. "Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb. Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır", - deyə Prezident İlham Əliyev Füzulidə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bildirib.

Bütün azad olunmuş rayonlarımız kimi, Füzuli rayonunun da bərpası dövlətimizin gücünün göstəricisidir. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur, bu torpaqlara yeni həyat verilir. Prezident İlham Əliyevin dediyi kimi, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

◆ Zəfərin izi ilə

# QARABAĞIN HAVA QAPISI



## İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanını cəmi 8 aya inşa etdirdi

*Əvvəli 1-ci səh.*

İlk baxışdan aydın olurdu ki, liman beynəlxalq standartlara uyğun infrastrukturla tam təchiz edilib.

Ərazidə yüksək səviyyəli yaşıllaşdırma işləri yekunlaşıb, kompleksi elektrik enerjisi ilə təmin etmək üçün əsas transformator yarımstansiyasının inşası və elektrik xətlərinin çəkilməsi, həmçinin qazanxana və digər köməkçi binaların tikintisi də başa çatıb. Fasiləsiz su təminatı məqsədilə artezian quyusunun qazılması, həmçinin su rezervuarlarının, bundan əlavə, qazanxana və köməkçi binaların tikintisi yekunlaşıb.

Məlumat verilir ki, baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VİP zalların, mağazaların, restoranların işə salınması nəzərə alınmaqla, saatda ən azı 200 sərnişin buraxılış qabiliyyəti olan terminalın tikintisi artıq başa çatıb. Sərnişin terminalı qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq tikilib.

Hava limanında uzunluğu 3000, eni 60 metr olan uçuş-enmə zolağı istismara tam hazırdır. Uçuş-enmə zolağı instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, radiolakasiya sistemləri ilə tam təchiz edilib. Bu, hava limanına istənilən tip təyyarəni qəbul etməyə imkan verəcək. Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

### Bakıdan Füzuliyə cəmi 35 dəqiqəyə...

Azərbaycanda "Müəllifi İlham Əliyevdir" brendi daşıyan yüzlərlə müasir infrastruktur var. Onların xeyli hissəsi təkcə ölkə səviyyəli deyil, həm də beynəlxalq miqyaslı layihələrdir. Vətən savaşında qazanılan şanlı Zəfərdən sonra isə bu silsilədə artımlar baş verib. Onlardan biri də məhz Füzuli Beynəlxalq Hava Limanıdır.






Hava limanının təməli bu ilin yanvar ayının 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu hava limanını işğaldan azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli layihə adlandıran Prezident qeyd edib ki, aeroportun əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Xarici qonaqlar bu hava limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Xatırladaq ki, sentyabrın 5-də hava limanına ilk uçuş reallaşıb. Yəni təməlqoymadan 8 ay sonra limana təyyarələr enib. Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus "Qarabağ" adını daşıyan ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək 35 dəqiqəyə Qarabağın ilk hava limanında eniş icra edib. Bundan əlavə, həmin gün Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də həmin gün hava limanına eniş icra edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb.

Hava limanının əsas məqsədi Prezidentin söylədiyi kimi, xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. İstənilən qonaq bu hava limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa və ya Ağdam şəhərinə gedə biləcək.

### Füzuli hava limanı beynəlxalq uçuşlar üçün də açıqdır

Oktyabrın 17-də Füzuliyə səfəri çərçivəsində aerokompleksə tanış olan İlham Əliyev beynəlxalq miqyaslı layihəni belə dəyərləndirib: "Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir".

Bu da o deməkdir ki, Qarabağı 44 günə düşmən tapdağından azad edən Qalib Sərkərdə dünya tarixində daha bir ilki reallaşdırdı - illərlə minalanmış ərazilərin təmizlənmə prosesi daxil olmaqla, cəmi 8 aya beynəlxalq hava limanı inşa etdirdi.

Bu günlərdə Füzuli hava limanına beynəlxalq status verilib. Bu statusun verilməsi haqqında qərar hava limanında bütün tikinti-quraşdırma işləri başa çatdıqdan sonra qəbul edilib. Bundan əlavə, hava limanına Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) tərəfindən latın əlifbasının üç hərfindən ibarət "FZL" kodu verilib. Bu fərdi kod hava limanının yerləşdiyi şəhərin adı - Füzuli ilə bağlıdır.

Beləliklə, aerokompleksdəki müşahidələrimizə, aldığımız son məlumatlara əsaslanaraq deyə bilərik ki, İlham Əliyevin Qarabağın dirçəlişi istiqamətində reallaşdırdığı beynəlxalq miqyaslı növbəti layihə Azərbaycana həm iqtisadi dividendlər gətirəcək, həm də Qarabağın turizm potensialının inkişafına böyük töhfə verəcək.

*Tezliklə Bakıdan havaya qalxacaq təyyarələrdə 35 dəqiqədən sonra bu məlumat səslənəcək: "Əziz sərnişinlər, Qarabağa xoş gəlmisiniz. Füzuli aeroportu sizi salamlayır"...*

*Elə bu xoş təəssüratlarla da hava limanı ilə tanışlığımızı yekunlaşdırıb "Zəfər yolu" ilə Şuşaya doğru irəliləyirik.*

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Füzuli-Şuşa-Bakı*







# 20 oktyabr 2020-ci il ZƏFƏR gündəliyi

Torpaqlarımızın işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub.

Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılır. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri, kapitan Vahab Asetryan da zərərsizləşdirilir.



Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə artilleriya bölmələrimiz zərbələr endirir. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilir.



❖ ❖ ❖

Prezident İlham Əliyev xalqa müraciət edir.

Müzəffər Azərbaycan Ordusunun döyüş meydanında yeni qələbələr qazandığını söyləyən Ali Baş Komandan qeyd edir ki, torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür.

"Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq", - deyən Prezident xoş xəbərlər verərək işğaldan azad edilən növbəti yaşayış məntəqələrinin adlarını açıqlayır:

**Füzuli** rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

**Cəbrayıl** rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.



**Xocavənd** rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri.

**Zəngilan** rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Prezident Vəng kəndinə yeni Azərbaycan adı verir: "Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "İnstaqram" səhifəsində paylaşım edir:

"Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Gün ərzində düşmənə məxsus 2 PUA zərərsizləşdirilir.

Axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

Saat 19:30 radələrində isə düşmənə məxsus növbəti PUA Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələri məhv edilir.

❖ ❖ ❖

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində düşmənin 2-ci motoatıcı alayın müdafiə sahəsində bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edir. Məlum olur ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, düşmənin 10-cu dağatıcı diviziyasının müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalır. Şəxsi heyətin üçdəikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilir.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



## 20 OKTYABR ENERGETİKLƏR GÜNÜDÜR



# Ölkə Prezidenti İlham Əliyevin enerji strategiyasına uyğun olaraq bütün işlər uğurla davam edir

**Hər il oktyabr ayının 20-də ölkə energetikləri özlərinin peşə bayramlarını böyük təntənə ilə qeyd edirlər. Builki Energetiklər günü isə bir çox məqamlarla əlamətdardır. Əvvəla, builki Energetiklər günü Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsindən sonra Qələbə sevinci ilə qarşılayacağımız bir bayramdır.**

Digər tərəfdən, bu ilin 20 oktyabrında Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə tikilən, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İES-in 40 illiyi tamam olur. Prezident İlham Əliyevin tapşırığına əsasən, tamamilə yenidən qurularaq ömrü 20 il uzadılan, 44 günlük Vətən müharibəsi dövründə düşmənlərin bir nömrəli hədəfinə çevrilən bu stansiyanın yaranma tarixinin cənab Prezidentin 2004-cü ildə imzaladığı sərəncam ilə Energetiklər günü kimi təsis olunması bu sahədə çalışan insanların fədakar əməyinə verilən yüksək diqqət və qayğının, böyük dəyərin təzahürüdür.

Eyni zamanda “Azərenerji” ASC-nin 1941-ci ildə təsis edilən Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun yaranmasının da 80 illiyidir. Ölkəmizdə elektroenergetika sahəsi üzrə ilk elm məbədi olan bu qurum 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasını təsis edən dörd institutdan biridir. Uzun illər ərzində bu sahədə yeganə elmi-praktiki qurum kimi fəaliyyət göstərən institut öz sıralarını təcrübəli mütəxəssislərlə möhkəmləndirib, zəngin təcrübə toplayaraq fəaliyyət dairəsini genişləndirib. 2020-ci ildə Prezident İlham Əliyevin qayğısı ilə bu qocaman elm məbədinin binası müasir memarlıq üslubunda yüksək səviyyədə yenidən qurulub.

İlk olaraq mətləbə böyük Qələbədən ötən bir ildən az müddətdə dövlət başçısının tapşırığına uyğun olaraq işğaldan azad edilən rayonlarda elektroenergetika infrastrukturunun yaradılması ilə başlamaq istəyirəm.

İşğaldan azad edilmiş ərazilərimizin ən qısa müddətdə Azərbaycanın ümumi enerjisisteminə qoşulması, həmin rayonlarda yeni generasiya mənbələrinin yaradılması ilə bağlı ölkə Prezidentinin qarşıya qoyduğu tələblərə uyğun olaraq son dərəcə böyük həcmli işlər görülüb və görülməkdədir. İndiyədək cənab Prezidentin iştirakı ilə Laçın rayonunda gücü 8 meqavat olan “Güləbird” Su Elektrik Stansiyası və Tərtər rayonunun işğaldan azad edilmiş ərazilərində ümumi gücü 8,7 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyaları tamamilə yenidən qurularaq istismara verilib. Hazırda “Kəlbəcər-1” və “Kəlbəcər-2” Kiçik Su Elektrik stansiyalarında yenidənqurma işləri uğurla davam etdirilir.

İşğaldan azad edilən ərazilərin ən qısa müddətdə Azərbaycanın ümumi enerji sisteminə qoşulması istiqamətində atılan addımlara əsasən, bu günədək dörd rayonda 110/35/10 kV-luq “Şuşa”, “Füzuli”, “Kəlbəcər” və “Cəbrayıl” yarımstansiyaları tikilərək cənab Prezidentin iştirakı ilə istismara verilib. Həmçinin “Şükürbəyli” yarımstansiyası genişləndirilərək yenidən qurulub, bu enerji obyektindən Şuşaya 75 km uzunluğunda ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib və “Füzuli” yarımstansiyası ilə əlaqələndirilib.

Eyni zamanda Daşkəsən rayonundan Murov dağını keçməklə Kəlbəcər rayonuna 70 kilometr uzunluğunda, “Şükürbəyli” yarımstansiyasından isə yeni tikilmiş “Cəbrayıl” yarımstansiyasına 31 kilometr məsafədə ikidövrəli 110 kV-luq elektrik verilişi xətləri çəkilib. Cəbrayıldan 45 kilometr məsafədə yeni “Qubadlı” yarımstansiyasına, oradan 34 kilometr məsafədə yerləşən yeni tikilən “Zəngilan” yarımstansiyasına 110 kV-luq ikidövrəli elektrik xəttinin çəkilməsi və yarımstansiyaların tikinti işləri isə yekunlaşmaq üzrədir. Hazırda “Xındırıstan” yarımstansiyasından 35 kilometr məsafədə 110 kV-luq ikidövrəli xətt çəkilir, “Ağdam-1” və Ağdam-2” yarımstansiyaları tikilir.

Gələcəkdə “Ağcabədi” yarımstansiyasından 130 kilometr, “İmişli”dən isə 132 kilometr məsafədə “Cəbrayıl” yarımstansiyasına 330 kV-luq hava xəttinin çəkilməsi, oradan isə Naxçıvana 330 kV-luq hava xəttinin aparılması, o cümlədən Cəbrayıl və Naxçıvanda yeni 330 kV-luq yarımstansiyaların tikintisi planlaşdırılıb. Cəbrayıl rayonunda tikiləcək 330 kV-luq yeni yarımstansiya “Xudafərin” və “Qız qalası” layihələri ilə yanaşı, Naxçıvanın ölkənin ümumi enerji sistemi ilə əlaqələndirilməsini təmin edəcək. Laçın və işğaldan azad olunmuş digər ərazilərimizdə 110 kV-luq yarımstansiyaların, əlaqələndirici xətlərin çəkilməsi, Qarabağın dairəvi elektrik təchizat sxeminin gerçəkləşdirilməsi nəzərdə tutulub. Azərbaycan energetiklərinin çətin iş şəraitində nümayiş etdirdikləri yüksək peşəkarlıq və fədakarlıq işğaldan azad olunmuş ərazilərimizin elektrik enerjisi təchizatının uğurlu həllini daha da yaxınlaşdırır.

İşğaldan azad edilən ərazilərlə paralel olaraq, enerjisistemdə yenidənqurma, bərpa və modernləşdirmə prosesi uğurla davam etdirilir. 2018-ci ildən cənab Prezidentin tapşırığına əsasən, ölkə enerjisistemində başlayan yeni islahatlara uyğun olaraq, mövcud generasiya güclərinin potensialı artırılır, elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində irimiqyaslı təmir, bərpa və yenidənqurma işləri həyata keçirilir. Xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm ki, 2018-ci ilin sentyabr ayında qəbul edilən “Reabilitasiya Proqramı”nın icrası bu il uğurla başa çatıb. Proqramda nəzərdə tutulmuş bütün tədbirlər tam yerinə yetirilib. Həyata keçirilmiş modernləşmə işləri nəticəsində mövcud elektrik stansiyaların qış rejimində 1000 MVt, yay rejimində isə 800 MVt-dan çox “itirilmiş” generasiya gücləri bərpa edilib.













“Reabilitasiya Proqramı” çərçivəsində istismar müddətini çoxdan başa vuran “Azərbaycan” İES-in hər biri ayrıca elektrik stansiyası statusunda olan 8 enerji bloku yenidən qurularaq 600 MVt-dək yük bərpa edilib, stansiyanın ömrü ən azı 20 il uzadılıb. Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasının 500 və 330 kV-luq yarımstansiyaları tamamilə yenidən qurulub.

Bununla yanaşı, “Cənub” Elektrik Stansiyasının 2 saylı qaz turbini “General Electric” şirkəti ilə birgə tamamilə yenidən qurulub, 200 MVt-dan çox “itirilmiş” güc bərpa edilib. Etibarlı yanacaq təchizatını təmin etmək üçün stansiyaya 23 kilometr məsafədə yeni qaz xətti çəkilməklə 12 MVt/saat xüsusi sərfiyyata qənaət edilib. Kür çayında su səviyyəsinin kritik həddə aşağı düşməsi ilə əlaqədar “Cənub” ES-in soyutma su təchizatı üçün suaşıran qurğu tikilib, yeni nasoslar quraşdırılıb.

“Şimal-1” Elektrik Stansiyasında “Mitsubishi” şirkəti ilə birlikdə əsaslı təmir işləri aparılıb, 20 MVt “itirilmiş” generasiya gücü bərpa edilib. Stansiyanın daxili işıqlandırılmasını təmin etmək məqsədilə soyutma su kanalının üzərində 300 kV gücündə SES tikilərək istifadəyə verilib.

İstismar müddətini başa vuran “Sumqayıt” ES isə “Siemens” şirkəti ilə birgə əsaslı təmir edilib, 20 MVt “itirilmiş” güc bərpa olunub. Stansiyanın soyutma su sistemində yaranan problemi aradan qaldırmaq məqsədilə Xəzər dənizində 750 metr məsafədə estakada su nasos stansiyası tikilərək istismara verilib.

2018-ci ilin sentyabr ayınadək modul tipli elektrik stansiyalarda (6 ədəd) aqreqatların 35 faizi tamamilə sıradan çıxmışdı, yerdə qalan aqreqatlar isə 60 faiz gücündə işləyirdi. Modul elektrik stansiyaların real generasiya güclərini artırmaq məqsədlə Finlandiyanın “Wartsila” şirkəti ilə bağlanan müqavilələrə əsasən, lazım olan ehtiyat hissələri ölkəyə gətirilmiş, stansiyalar əsaslı təmir olunaraq 260 MVt “itirilmiş” güc bərpa edilmişdir.

Enerjisistemin dayanıqlı iş rejiminin təmin edilməsi, artan güc tələbatının qarşılanması istiqamətində icra edilən mühüm layihələrdən biri də “Qobu” enerji qovşağıdır. 385 MVt gücündə “Qobu” Elektrik Stansiyası və 330/220/110/10 kV-luq “Qobu” yarımstansiyasından ibarət olan bu enerji qovşağı Bakı və Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatında bir mənbədən asılılığı aradan qaldıracaq və dairəvi elektrik təchizat sxemləri ilə enerjisistemin dayanıqlı iş rejimləri təmin ediləcək. Stansiya yaxın illərdə respublikada fəaliyyətə başlayacaq bir sıra qeyri-neft sənayesi obyektlərinin, o cümlədən Ələt qəsəbəsinin yaxınlığında yaradılacaq Azad İqtisadi Zonanın etibarlı elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaq.

Hazırda 385 MVt gücündə “Qobu” Elektrik Stansiyasının tikintisi başa çatıb və test rejimində işləyir. Həmçinin tikintisi yekunlaşan 330 kV-luq “Qobu” yarımstansiyası enerjisistemə inteqrasiya olunub. Bu yarımstansiya 500 kV-luq “Abşeron” yarımstansiyasının əvəzedicisi funksiyasını daşımaqla 1000 MVt-dək gücü qəbul edib ötürəcəkdir.

Respublikada generasiya güclərinin artırılması ilə yanaşı, ötürücü infrastrukturun yenidən qurulması istiqamətində də mühüm işlər görülüb. Qonşu Gürcüstan və İran İslam Respublikası ilə elektrik enerjisi mübadiləsinin yaxşılaşdırılması, ixrac imkanlarının artırılması məqsədilə yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilib. 43,4 km məsafədə 330 kV-luq “Ağstafa-Qardabani” EVX tikilərək istismara verilib, ixrac gücü iki dəfə (700 MVt) artıb. Tikintisinə 2013-cü ildə başlanılan 67,5 kilometr uzunluğunda 220 kV-luq “Masallı (Azərbaycan)-Astara (İran)” EVX-nin tikintisi isə yekunlaşmaq üzrədir. Dövlətlərarası yeni elektrik verilişi xətlərinin çəkilişi Azərbaycanın enerji mübadilə potensialını daha da yüksəldəcək, ölkəmizin beynəlxalq enerji bazarına çıxışını möhkəmləndirəcəkdir.

Elektrik enerjisi təchizatında etibarlılığı və dayanıqlılığı gücləndirmək məqsədilə ötən müddət ərzində 1 ədəd 500 kV-luq yarımstansiya (“Abşeron”) və 4 ədəd 220 kV-luq (“Müşfiq”, “Xırdalan”, “Hövsan”, “Nizami”) yarımstansiya yenidən qurulub, 1 ədəd 220 kV-luq “Böyükşor” yarımstansiyası tikilib. Həmçinin 18 ədəd 110 kV-luq yarımstansiya tam yenidən qurulub, 2 ədəd yeni yarımstansiya inşa olunub.

Azərbaycanın elektroenergetika sektorunun avtomatika və idarəetmə sahəsində də mütərəqqi metodların tətbiqi müsbət dəyişikliklər sırasında olmuşdur. Yeni SCADA sistemi - ABB şirkətinin müasir avadanlıq və proqram təminatı ilə təchiz edilmiş, “Azərenerji” ASC-nin 130-dək elektrik stansiyası və yarımstansiyalarını, “Azərişıq” ASC-nin qovşaq yarımstansiyalarını, həmçinin müstəqil generasiya obyektlərini birləşdirməklə enerjisistemin Baş İdarəetmə Mərkəzi yaradılmışdır. Yeni SCADA sistemi 2-3 dəfə genişlənmə resurslarına malik olmaqla enerjisistemin rəqəmsal idarəetməsini təmin edir.

Həmçinin yeni əks-qəza avtomatikası - enerjisistemin dayanıqlılığını və etibarlılığını təmin etməklə gözlənilməz təsirlərini, qəza hallarını lokallaşdıraraq sistem qəzasına çevrilməsinin qarşısını alan xüsusi sistem yaradılıb. Reaktiv gücün kompensasiyası - 330 kV-luq “Yaşma” (120 MVAr) və “Goranboy” (180 MVAr) yarımstansiyalarında avtomatik idarəolunan şuntlayıcı reaktorlar quraşdırılıb ki, bu da enerjisistemin müxtəlif rejimlərdə təhlükəsizliyini təmin edir.

Həyata keçirilən reabilitasiya tədbirləri, modernləşmə işləri nəticəsində yüksək səmərəlilik əldə edilib, elektrik enerjisinin keyfiyyət göstəriciləri nəzərəçarpacaq dərəcədə yüksəlib, itkilərin səviyyəsi aşağı düşüb. Şərti yanacaq sərfinin 2018-ci ildəki 284,0 qr/kVts-dan 262,8 qr/kVts-a enməsi nəticəsində 609,6 mln. m3 təbii qaza qənaət olunub, enerjisistem üzrə texniki itkilər 2018-ci ildəki 2,24%-dən 1,74%-ə enib. Ümumilikdə əldə edilən qənaət 92,6 mln. manat təşkil edir.

Qeyd edim ki, 2003-cü ilə qədər Azərbaycanda cəmi 10 elektrik stansiyası mövcud idi. Cənab İlham Əliyev Prezident seçildikdən sonra bütün sahələrdə müşahidə olunan dinamik inkişafa və elektrik enerjisinə olan tələbatın kəskin artmasına adekvat olaraq ölkədə 34 yeni elektrik stansiyası tikilib istismara verilib. Buna paralel olaraq, enerjinin ötürülməsi, paylanması və idarəedilməsi sahəsində irimiqyaslı, kompleks tədbirlər həyata keçirilib. Bir sözlə, cənab İlham Əliyevin hakimiyyətini əhatə edən tarixi dövr islahat, inkişaf və tərəqqi mərhələsi olmaqla yanaşı, Azərbaycan enerji sisteminin müasir üslubda yenidən qurulması və ya qızıl dövrü kimi xarakterizə oluna bilər. Beləliklə, Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü enerji siyasəti nəticəsində ölkədə enerji təhlükəsizliyinə tam nail olunub, Azərbaycan faktiki olaraq elektrik enerjisini idxal edən ölkədən ixrac edən lider ölkəyə çevrilib.

Energetika təsərrüfatında həyata keçirilən irimiqyaslı tədbirlər sayəsində Davos İqtisadi Forumunun hesabatında Azərbaycan elektrik enerjisinin əlçatanlıq əmsalına görə dünya miqyasında ikinci yerdə qərarlaşıb. Dünyanın mötəbər reytinq təşkilatının hesabatlarındakı bu qürurverici rəy Prezident İlham Əliyevin rəhbərliyi ilə enerjisistemdə həyata keçirilən misilsiz quruculuq işlərinə verilən yüksək beynəlxalq dəyərdir. Bu möhtəşəm yenidənqurma işlərində ölkə energetiklərinin payının da olması bizi çox sevindirir, gələcək işlərimizə stimul verir. Əminliklə qeyd edirəm ki, Azərbaycan energetikləri Prezident İlham Əliyevin qarşıya qoyduğu bütün tapşırıqları bundan sonra da ləyaqətlə icra edəcək, strateji hədəflərinə çatmaqda yüksək fəallıq nümayiş etdirərək üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirəcəklər.

*Baba RZAYEV,*
*“Azərenerji”*
*ASC-nin prezidenti*

Dünya təcrübəsi

# Dördgünlük iş həftəsi

## Yenilikçi ideyanın tərəfdarları da var, əleyhdarları da...

**İndiyəcən utopik görünən dördgünlük iş həftəsi ideyası müasir bazar reallıqlarında aktual mövzuya çevrilib. Koronavirus pandemiyasının məsafədən, başqa sözlə desək, iş yerinə gəlmədən çalışmağın mümkün olduğunu sübut etməsi nəticə etibarilə dördgünlük iş həftəsi məsələsini də gündəmə gətirdi. Bununla bağlı hətta illər öncə İslandiyada eksperiment də keçirilmişdir.**



### İlk eksperimentin uğurlu nəticəsi

Eksperimentin əsas məqsədlərindən biri həyatla iş arasında daimi balans tapmaq idi. Təşkilatçılar bu qənaətə gəlmişlər ki, iş saatlarının ixtisarı məhsuldarlığı aşağı salmır, insanları, belə demək mümkündürsə, xeyli məmnun edir.

2015-ci ildə ictimai təşkilatların təzyiqi ilə başlamış eksperiment tədricən müxtəlif müəssisələrin - polis məntəqələrindən tutmuş qocalar evinə kimi 2500 əməkdaşa şamil olunmuşdur. İştirakçılar əməkhaqqı saxlanılmaqla 40 saatlıq iş rejimindən həftədə 35, yaxud 36 saatlıq iş rejiminə keçirilmişlər. Növbəti illərdə həmkarlar ittifaqları ölkədə işləyənlərin 80 faizinin iş saatlarının azaldılmasına nail olmuşlar.

Eksperimenti keçirən Autonomy Tədqiqatlar İnstitutu və "Alda" şirkəti qeyd edirlər ki, vətəndaşlar uzunmüddətli iş həftələrinin ədalətsizliyini və qeyri-səmərəliliyini başa düşürlər. Bu səbəbdən ölkədə iş saatları ixtisar edilməlidir. Bununla bağlı artıq cəmiyyətdə konsensus formalaşıb.

Həftədə bir gün az işləyən, yaxud təhsil alan əməkçilər və tələbələr hobbi məşğuliyyətləri, ailə ilə ünsiyyət, yuxu üçün əlavə vaxt qazanırlar. Onların mənəvi əhvali-ruhiyyəsi də yaxşılaşır. Bu isə məhsuldarlığa müsbət təsir edir. Bundan əlavə, biznes və cəmiyyət üçün istismar və ekoloji xərclər azalır.

Eyni zamanda qonşu Skandinaviya ölkələrində həftəlik məcburi iş saatları daha azdır: Danimarkada 37 saat, Finlandiya və Norveçdə 37,5 saat.

Tədqiqat iştirakçılarından biri deyir ki, iclasların keçirilməsinə sərf olunan vaxt azaldılıb və qarşıda duran vəzifələri daha səmərəli icra etmək üzərində iş davam edir. Özü də bu yanaşma tamamilə müxtəlif təşkilatlarda eyni səmərə verir. BBC xəbər verir ki, dördgünlük iş həftələri şəraitində adamlar daha motivasiyalı olur və səmərəli işləyirlər.

"Alda" nümayəndəsi Qudmundr Haraldsonun dediyinə görə, bu tədqiqat göstərir ki, dövlət sektoru iş həftəsinin azaldılması istiqamətində ilk addımlarını atmağa hazırdır. Autonomy Tədqiqatlar İnstitutunun direktoru Uill Stronc isə hesab edir ki, eksperiment çox uğurlu alınmışdır.

### "Dördgünlüy"ü dəstəkləyən dövlətlərin sayı artır

Oxşar eksperimentlər digər ölkələrdə də keçirilir. İspaniyada koronavirusla əlaqədar şirkətlərin bir qismi dördgünlük iş həftəsinə keçmişdir. Ölkədə tətbiq olunan pilot layihəsi çərçivəsində üçillik eksperiment başlamışdır. İspaniya hökuməti həftədə dörd gün işləyən şirkətləri subsidiyalaşdırmağı da fikirləşir. Könüllü olaraq işçi personalı əməkhaqqı saxlanılmaq şərti ilə 32 saat iş rejiminə keçən şirkətlər hökumətdən maliyyə yardımı alacaq.

Yeni Zelandiyada iki il öncə dördgünlük iş modeli tətbiq edilmişdir. Bəzi müəssisələrdə iş saatı əməhaqqı saxlanılmaq şərti ilə 20 faiz qısaldılmışdır.

Finlandiyada, İsveçdə və Belçikada hökumət həftədə dördgünlük iş modelinin tətbiqini nəzərdə tutan qanun layihəsi hazırlayır. İş günlərinin sayı azaldılsa da, həftəlik ümumi iş sayı dəyişdirilməyəcək və gündəlik 9,5 saatlıq iş rejimi tətbiq olunacaq.

Yaponiyada da qanunvericilər şənbə və bazar günlərinə daha bir istirahət günü əlavə etməyi müzakirəyə çıxarıblar. Qambiyada isə Prezident Yaya Cammenin sərəncamı ilə 2013-cu il fevralın 1-dən dördgünlük iş həftəsinə keçid baş tutmuşdu.

Bu günlərdə Belçikada parlament müzakirələrindən sonra ölkənin bütün iri siyasi partiyaları mərhələli şəkildə dördgünlük iş həftəsinə keçməyə razılaşmışlar. Yaşıllar Partiyasının nümayəndəsi Məryəm Almacı hesab edir ki, bu addım həyat rahatlığına müsbət təsir edir, lakin layihənin üzərində işlənilməlidir ki, o, reallığa daha yaxşı uyğunlaşsın.

Əslində son 20 ildə inkişaf etmiş ölkələrdə iş saatının sayı tədricən azaldılırdı. 2000-ci ildə 35 saatlıq iş həftəsinə keçən Fransa bu sahədə lider oldu.

Lakin bu ideyanı dəstəkləməyən transmilli şirkətlər və ölkələr də var. Məsələn, "Alibaba Group" şirkətinin yaradıcısı Cek Ma Çinin "996" adlı əmək ənənəsini bəyənir. Bu, həftədə 6 dəfə səhər 9-dan axşam 9-dək işləmək deməkdir. Milyarder güman edir ki, belə rejim uzunmüddətli uğurun əsas rəhnidir.

### 40 saat, yoxsa 32 saat?..

32 saatlıq iş həftəsinə keçmək cəhdləri isə son 80 il ərzində uğursuz olmuşdur. Məsələn, Britaniya Leyboristlər Partiyası 10 il ərzində 32 saatlıq iş rejiminə keçməyi vəd etsə də, 2019-cu ilin parlament seçkilərində məğlubiyyətə uğrayaraq bunu həyata keçirə bilmədi. Bundan əlavə, bir çox işəgötürənlər əməkhaqqını azaltmadan iş saatlarını ixtisar etmək istəmirlər.

Tarixə ekskurs etsək, hazırda adət etdiyimiz iş qrafikinin amerikalı avtomobil maqnatı Henri Ford tərəfindən tətbiq olunduğunu görərik. 1914-cü il yanvarın 5-də o, öz şirkətində iş gününü 9 saatdan 8 saata azaltmış, eyni zamanda hər növbə üçün əməkhaqqını 3 dollardan 5 dollara qaldırmışdır. Rəqibləri bu yeniliyi skeptik qarşılasa da, bir müddət keçəndən sonra sənayeçinin yanaşması özünü doğrultmuşdur. Bütün ölkənin ən yaxşı mexanikləri "Ford Motor Company" şirkətinə işə keçmiş və kompaniyanın istehsal gücü xeyli artmışdır. Cəmi iki il ərzində Ford gəlirini iki dəfə artırmışdır. Bu ideyanın iqtisadi cəhətdən xeyirli olması sübuta yetirilsə də, ABŞ ərazisində 23 ildən sonra rəsmən 8 saatlıq iş rejiminə keçilmişdir.

### Tarix nə deyir?

Ancaq bəzi mənbələr bildirirlər ki, əslində yenilikçi ideyanın müəllifi heç də Henri Ford olmayıb. Hələ 1593-cü ildə Kral II Filipp özünün "Ordenanzas de Felipe II" fərmanında ilk dəfə 8 saatlıq qrafik tətbiq etmiş və gün ərzində iş yükünün bölünməsini tapşırmışdır. Məsələn, qızmar günəşdən yaxa qurtarmaq üçün işçilər 4 saat səhər və 4 saat axşam çalışırmışlar.

Adət etdiyimiz qrafikə növbəti addımı isə 1810-cu ildə sənayeçi Robert Ouen atmışdı. Öncə o, Nyu Lanakdakı müəssisəsində 10 saatlıq iş rejimi (bundan əvvəl orada 14-16 saat işləyirdilər), 7 ildən sonra isə 8 saatlıq rejim tətbiq etmişdi. Ouen hətta xüsusi şüar fikirləşmişdi: "8 saat iş, 8 saat əyləncə və 8 saat istirahət".

Eyni zamanda bütün uğurlara, habelə əməkdaşların və həmkarlar ittifaqlarının fəal dəstəyinə baxmayaraq, uzun müddət 5 günlük iş həftəsi nadir hallarda tətbiq olunurdu. Kütləvi şəkildə bu qrafikə ötən əsrin əvvəlində keçməyə başladılar.

Asiyada Hindistan 1912-ci ildə "gündə 8 saat, həftədə 5 gün" sxemini tətbiq edən ilk ölkə oldu. 1917-ci ildə sosialistlərin 40 saatlıq qrafik barədə ideyası SSRİ-də qanuniləşdirildi. Avropanın əksər dövlətlərində hazırkı iş rejimi 1919-cu ildə - iqtisadiyyatı iflic etmiş bir neçə tətildən sonra bərqərar olmuşdu.

Yaponiyada 40 saatlıq iş həftəsinə ilk dəfə keçən Kawasaki müəssisəsidir. 1919-cu ildə fəhlələrin tətilindən sonra şirkət rəhbərliyi bu rejimə keçməyə məcbur olmuşdu. Ölkə üzrə isə bu norma 28 ildən sonra, "Əmək standartları haqqında" qanunun qəbulu ilə qüvvəyə minmişdi.

Son olaraq 8 saatlıq iş rejimini 1947-ci ildə Avstraliya tətbiq etmişdi.

### Beynəlxalq Əmək Təşkilatı da 4 günlük iş həftəsinə razıdır

Xatırladaq ki, 2014-cü ildə Beynəlxalq Əmək Təşkilatı bütün ölkələrə dördgünlük iş rejiminə keçid barədə düşünməyi təklif etmişdir. Ekspertlərin fikrincə, bu model əməyin yüksək avtomatlaşdırıldığı iqtisadiyyatlar üçün səmərəlidir.

Bir müddət əvvəl Böyük Britaniya xəzinədarlığının sabiq kölgə kansleri Con MakDonnel dünya liderlərinə, o cümlədən Co Baydenə, Boris Consona və Angela Merkelə ünvanladığı məktubda iş yerlərini xilas etmək, əmək bazarındakı ümumi strategiyanı yenidən düşünmək və elektrik enerjisinin sərfiyyatını azaltmaq məqsədilə öz ölkələrini dördgünlük iş həftəsi rejiminə keçirməyə çağırmışdı.

Həmkarlar ittifaqlarının çoxu isə bu rejimin tətbiqinə qarşı çıxırlar. Onlar hesab edirlər ki, yeni qrafik işçilərin 8 saatlıq iş rejimi haqqında qanunlarda əks olunmuş uğurlarını məhv etmək cəhdidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib
















Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, şəhid mayor Əliyev Malik Təvəkkül oğlu, baş leytenant Əzizov Elçin Əvəz oğlu, gizir Əliyev Vüsal Məhəmmədəli oğlu, kiçik gizirlər Ramazanlı Əlizamin Umud oğlu, Mustafayev Əkbər Natiq oğlu, Məmmədov Əli Zeynal oğlu, Quliyev Fərid Ayazxan oğlu və Abasov Davud Yalçın oğlunun anım mərasimlərində DSX-nin rəhbər heyəti, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Anım mərasimlərinin iştirakçıları şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri və əklil qoyublar.

Mərasimlərə qatılanlar Azərbaycanın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad olunması uğrunda Vətən müharibəsində şəhidlərimizin qəhrəmanlığı, döyüş meydanında düşməni diz çökdürən igidlərimizin şücaət və fədakarlıqlarından danışıblar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalqımızın müqəddəs savaşında bizlərə qalibiyyət sevinci yaşatmış şəhidlərimizin əziz xatirəsinin hər zaman minnətdarlıqla anılacağı, onların tariximizə yazdığı qəhrəmanlıq salnaməsinin gələcək nəsillər üçün örnək olacağı qeyd edilib. Qəhrəman oğullar böyütdüklərinə görə şəhidlərin valideynlərinə minnətdarlıq ifadə olunub.

Döyüş meydanında intiqamlarının alındığı, şəhidlərimizin qanlarının yerdə qalmadığı, Vətən qarşısındakı xidmətlərinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyi, onların adlarının əbədiləşdirildiyi, göstərdikləri şücaətlərə görə dövlətimizin başçısının müvafiq sərəncamları ilə xüsusi orden, medal və fəxri adlarla təltif olunduqları qeyd edilib.

Şəhidlərin ailə üzvləri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda həlak olan qəhrəmanların xatirəsinin əbədiləşdirilməsi, ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***"Azərbaycan"***

# Şəhid baş leytenant Telman Ələkbərovun xatirəsi anılıb

Torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirilib.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun şəhid baş leytenantı Telman Ələkbərovun xatirəsinə həsr olunan anım mərasimində şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən mərasimdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Sonra şəhid baş leytenant Telman Ələkbərovun ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olunub. Mərasimdə çıxış edənlər 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli və qüdrətli sərkərdəliyindən, dövlət-xalq-ordu birliyinin gücündən, şəhid baş leytenant Telman Ələkbərovun şərəfli döyüş yolundan danışıblar.

Sonda şəhidin anası Səmayə Ələkbərova ölkəmizdə şəhidlərin ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib. Anım mərasimi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən mahnı və marşlarla başa çatıb.

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılmasının 10-cu ildönümü münasibətilə tədbir keçirilib

Oktyabrın 18-də Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbinin yaradılmasının 10-cu ildönümü münasibətilə tədbir keçirilib.










DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, tədbirdə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı şəxsi heyətə çatdırılıb, mərasimin ölkəmizin tarixi Zəfərinin ildönümü dövrünə təsadüf etməsi ilə əlamətdar olması vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq Qələbə qazandığı, üçrəngli bayrağımızın sərhədlərimiz boyunca dalğalandırıldığı, Dövlət Sərhəd Xidmətinin qarşısında Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş bütün döyüş tapşırıqlarının uğurla icra olunduğu, sərhədçilərin qəhrəmanlıq və igidlik nümunələri göstərdikləri qeyd olunub.

Heydər Əliyev Fondunun dəstəyi ilə 2011-ci ildə qurularaq istifadəyə verilmiş Xüsusi Məktəbin sərhəd təhlükəsizliyinin təmin edilməsi üçün vətənpərvər, bilikli, savadlı sərhədçi kadrların yetişdirilməsində əhəmiyyətli rolu qeyd olunub, tədris müəssisəsinin açılış mərasimində və 2018-ci ildə ikinci korpusunun istifadəyə verilməsi tədbirində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirak etməsinin dövlətimizin sərhəd təhlükəsizliyi məsələlərinə göstərdiyi ali qayğının göstəricisi olduğu vurğulanıb.

Fəaliyyət göstərdiyi 10 il müddətində DSX Xüsusi Məktəbinə qəbul üçün müraciət sayının ilbəil artmasının tədris müəssisəsinin uğurlu fəaliyyətinin, yeniyetmələrdə sərhəd mühafizəsi sahəsində hərbi təhsilə marağın bariz göstəricisi olduğu qeyd edilib. Xüsusi Məktəbdə təhsil alan hər bir kursantın gələcəyin peşəkar zabiti, Vətənə layiqli övlad olacaqlarına əminlik ifadə edilib, onlara dərslərində yeni-yeni müvəffəqiyyətlər arzulanıb.

Mərasimdə tədrisdə göstərdikləri yüksək nəticələrə görə məktəbin pedaqoji heyəti və kursantları təltif olunub. Dövlət Sərhəd Xidmətinin mədəniyyət mərkəzinin musiqi kollektivləri tərəfindən kursantlar üçün konsert proqramı təşkil edilib.

Tədbirin sonunda Xüsusi Məktəbin kollektivi ilə xatirə şəkli çəkdirilib.

***"Azərbaycan"***

# Dövlətin əhalinin sosial rifahının qorunması sahəsində tədbirləri davamlıdır

Əvvəli 1-ci səh.

Prezidentin imzaladığı həmin sərəncam əhalinin həssas kateqoriyasının sosial müdafiəsində mühüm rol oynayacaq. Sərəncamın icrası ümumilikdə ölkə əhalisinin 1 milyon 800 min nəfərini əhatə edəcək. Beləliklə, sərəncamdan irəli gələn müddəaların yerinə yetirilməsi sayəsində əmək müqaviləsi ilə çalışanların böyük qisminin əməkhaqları artırılacaq. Həmçinin minimum əməkhaqqı alanların da məvacibləri yüksəldiləcək. Bu islahat 1 milyonadək işçini əhatə edəcək.

Pensiya və sosial müavinət artımı tədbiri 450 min şəxsə müvafiq sosial ödənişin artırılmasına imkan verəcək. Təqaüd artımı istiqaməti isə tələbələrin rifahına dəstək məqsədi daşıyır. Təqribən 130 minədək tələbənin təqaüdündə artım olacaq. Sərəncamın icrası ilə sosial ödəniş artımı həmçinin aztəminatlı əhali kateqoriyasına aid ailələri də əhatə edəcək. Ümumilikdə 1 milyon 800 min vətəndaşı əhatə edəcək sərəncam onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Ölkəmizdə əhalinin sosial müdafiəsi hər zaman diqqət mərkəzində olub. Koronavirus pandemiyası dövründə əhalinin həssas təbəqəsinə dövlət tərəfindən sosial dəstək verilib. Ötən ildə əhalinin sosial baxımdan həssas qruplarına maliyyə-sosial dəstək göstərilməsi, həmçinin pandemiyadan zərər çəkən iqtisadi sahələrdə fəaliyyət göstərən sahibkarlara, özəl qurumlara vergi, bank-kredit güzəştlərinin verilməsi bir daha dövlətin vətəndaşın problemlərinə həssas yanaşmasını təsdiqlədi. Bunun sayəsində ölkə əhalisi pandemiya dövründə bir sıra sosial sıxıntılar yaşamadı. Vətəndaşa olan həssas münasibət sayəsində bu problemi əhalimiz az ziyan çəkməklə adlaya bildi.

Prezident İlham Əliyev tərəfindən əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində qəbul edilən qərarlar tarixi əhəmiyyət daşıyır. Xatırladaq ki, təkcə 2019-cu ildə bu sahə ilə bağlı imzalanan fərman və sərəncamlar 4 milyondan çox insanın həyat şəraitinin yaxşılaşmasına xidmət etdi. Həmin qərarlar əhatə dairəsinə görə də çox genişdir. Belə ki, minimum pensiya, minimum əməkhaqqı, müavinət və təqaüdlərin artırılması ölkə əhalisinin yarıya qədərinin sosial rifahının yüksəlməsinə səbəb oldu.

2019-cu ildə vətəndaşların sosial rifahının yaxşılaşması üçün iki sosial paketin qəbulu mühüm hadisə idi. Həmin sənədlərə əsasən, minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata çatdırıldı. Dövlət sektorunda çalışanların əməkhaqqı 20-100 faiz artdı. Minimum əməkhaqqının və dövlət sektorunda əməkhaqqının artımı 1 milyon 350 min nəfəri (o cümlədən dövlət sektoru üzrə 1 milyon, özəl sektor üzrə 350 min nəfəri) əhatə etdi.

Əhalinin pensiya təminatında da mühüm işlər görüldü. Minimum pensiya 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırıldı, həmçinin əməkhaqqı artımı xüsusi şərtlərlə təyin olunan pensiyalarda (hərbçilərin, dövlət qulluqçularının və başqalarının pensiyalarında) 31 faiz artım təmin edildi. Beləliklə, ümumilikdə hər iki istiqamət üzrə pensiya artımı 750 min nəfərdən çox pensiyaçını əhatə etdi. Nəticədə Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri arasında birinci yerə, minimum əməkhaqqının alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə yüksəldi.

Sosial müavinət və təqaüdlər isə orta hesabla 100 faiz artırılıb. Həmin artım həssas qrupdan olan vətəndaşlardan ibarət 600 min insanı, o cümlədən 300 minə qədər əlilliyi olan şəxsi əhatə edib. Yeni təqaüd növləri - sağlamlıq imkanları məhdud uşaqlara və 1-ci dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis olunub. Eyni zamanda məcburi köçkünlərin müavinətləri, tələbələrin təqaüdləri ciddi şəkildə artırılıb, 800 min insanın problemli kreditlə bağlı olan narahatlığına son qoyulub.

Dövlətin vətəndaşa qayğıkeşliyi və hərtərəfli dəstəyi davamlı xarakter daşıyır. Keçən il və bu ilin əvvəlindən dövlət başçısı tərəfindən imzalanan sərəncam və verilən qərarlar bunu bir daha təsdiqləyir.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də bu sahədə aparılan uğurlu islahatlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) prezidenti Yoakim Bröyer Azərbaycanda sosial sahədə aparılan islahatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirib. O, həmçinin dövlətimizin bu sahədə gördüyü işlərin, pandemiya dövründə sosial təminatın əhalinin rifahına daha müsbət təsir göstərdiyini vurğulayıb. Eyni zamanda sosial sahədə atılan addımların təqdirəlayiq olduğunu bildirib. Bir daha aydın olur ki, dövlətin vətəndaşın sosial qayğısına qalması əhali tərəfindən olduğu kimi, beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Hirkan Milli Parkında "Təbiətin keşiyində" adlı ekoskaut düşərgəsi təşkil edilib











**Oktyabrın 16-18-də IDEA İctimai Birliyi və Azərbaycan Skaut Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Hirkan Milli Parkında "Təbiətin keşiyində" adlı növbəti ekoskaut düşərgəsi təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, "Təbiətin keşiyində" düşərgələrinin məqsədi gəncləri Azərbaycanın zəngin təbiəti, endem flora və faunası barədə məlumatlandırmaq, təbiəti qorumaq, onlara təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadə etməyi, həmçinin gənclərə vəhşi təbiətdə düzgün davranışı, ətraf mühitə ziyan vermədən istirahəti təşviq etməkdir.

Düşərgəyə 18-25 yaşarası ətraf mühit və davamlı inkişaf sahələrində təhsil alan, təhsilini tamamlamış və ya bu sahədə təcrübəsi olan, həmçinin ekoloji fəallığı ilə seçilən 100 nəfər gənc qoşulub.

Könüllü olaraq qoşulmuş gənclərin iştirakı ilə Hirkan Milli Parkının ərazisində ekotur təşkil edilib. Gənclərə Hirkan Milli Parkının yaradılmasında əsas məqsəd, üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılması, xüsusən də Vəhşi Təbiət Fondunun mütəxəssisi tərəfindən Hirkan Milli Parkında rast gəlinən nadir bəbirlər haqqında geniş məlumat verilib.

Gənclər üçün üçgünlük düşərgə müddətində Azərbaycanın biomüxtəlifliyi və milli parkları, eləcə də Dayanıqlı İnkişaf Məqsədləri (DİM) mövzusunda təlim, o cümlədən dağçılıq kimi idman sahələrində müasir avadanlıqlardan istifadə, qeyri-adi vəziyyətlərdən çıxış üsullarını və yaralıya ilk tibbi yardım qaydalarını praktiki təlimlərlə öyrənməklə yanaşı, əsrarəngiz mənzərəsi olan Xanbulan gölünə yürüşlər, səmti müəyyən etmə, oxatma, idman oyunları, zipline-dan uçuş, ekstremal gecələmə, müxtəlif ekoloji yarışlar və müsabiqələr keçirilib. Həmçinin gənclər qlobal ətraf mühit problemləri üzrə fikir mübadilələrində, ətraf mühitlə bağlı "Tullantıdan sənətə" təlimində və musiqili əyləncələrdə iştirak ediblər.

Sonda iştirakçılara xatirə sertifikatları təqdim edilib.

Qeyd edək ki, IDEA İctimai Birliyinin "Ekoskaut" layihəsinə 2017-ci ilin mart ayında start verilib. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir. "Ekoskaut" layihəsi çərçivəsində ilk düşərgə isə 2018-ci ilin may ayında Şirvan Milli Parkında, daha sonra Ağgöl, Göygöl və Şahdağ Milli parklarında keçirilib.

Ekoloji maarifləndirmə, insan fəaliyyəti nəticəsində təbiətə vurulan ziyanın azaldılması və tədricən aradan qaldırılması, eləcə də təbiətə münasibətdə etik davranışın formalaşdırılmasının əhəmiyyətini nəzərə alaraq, "Təbiətin keşiyində" ekoskaut düşərgələrinin ölkəmizin digər milli parklarında da keçirilməsi planlaşdırılır.

# Ermənistanda qiymətlər bir il ərzində 3 dəfəyədək bahalaşıb

Əvvəli 1-ci səh.

## 21 ildən sonra bahalaşmada ən yüksək göstərici

Ermənistanda qiymət artımı ən yüksək həddə çatıb. Sentyabr ayında ərzaq məhsulları və alkoqolsuz içkilərin qiymətləri 14 faiz bahalaşıb ki, bu da 1990-cı ildən sonra ən yüksək göstəricidir. Bitki yağları və şəkər kimi idxal olunan digər malların qiymətləri son aylar üçqat artıb. Yerli məhsulların qiymətləri də istehlak səbətinin sadə vətəndaşa daha baha başa gəldiyini göstərir. Belə ki, sentyabr ayında çörəyin qiyməti 2020-ci ilin eyni dövrü ilə müqayisədə 8,6, ət 9,7, yağ 15,9, qənd 39,4, yumurta 51,3, konservləşdirilmiş süd 10,4, tərəvəz 53 faiz bahalaşıb ki, bu da birbaşa inflyasiya deməkdir.

"Joxovurd" qəzeti baş verənlərlə bağlı yazır ki, əsas ərzaq məhsulları durmadan bahalaşır: "Ətin qiymətində bahalaşma özünü daha qabarıq büruzə verir. Bu ilin yanvar-avqust aylarında Ermənistanda ət istehsalı azalıb. Statistika Komitəsindən bildirilir ki, 2021-ci ilin səkkiz ayında qoyun və qoyun əti istehsalı ilə bağlı da geriləmə yaşanır. Yanvar-avqust aylarında donuz əti istehsalı 2,4 faiz artdığı halda, qoyun əti 3 faiz azalıb. Quş əti istehsalında da problemlər yaşanır.

Qəzet ermənilərin ən çox istehlak etdiyi məhsullardan sayılan kartofla bağlı təcili addımların atılmasını vacib hesab edir. Bildirilir ki, ölkədə kartofun qiyməti tədricən dolların məzənnəsinə çatıb. İndi bu məhsul ötən ilin indiki dövrü ilə müqayisədə daha yüksək qiymətə satılır. İrəvan supermarketlərində bir kiloqram kartofun qiyməti 330-550 dramdır. Ötən ilin sentyabr-oktyabr aylarında isə kartofun qiyməti 150 dram idi. Yəni 3 dəfəyə yaxın bahalaşma qeydə alınıb. Fermerlərin fikrincə, qış aylarında kartof daha da bahalaşacaq.

Qeyd edilir ki, kartofun bahalaşmasının əsas səbəbi suvarma suyunun olmamasıdır. Kəndlilər bu problemi ilin əvvəlində qabartmağa başlamışdılar. Su çatışmazlığı səbəbindən builki kartof əkinindəki məhsuldarlıq gözləniləndən az olduğuna görə fermerlər məhsulun qiymətini qaldırıb.

## Dramın devalvasiyası kütləvi aclıq gətirəcək

Bundan bir qədər əvvəl isə ölkədə yanacaq və digər xidmət növlərinin də bahalaşması qeydə alınıb. İqtisadçı ekspert Suren Parsyan qeyd edir ki, 2019-cu ildən başlayaraq Ermənistanda yoxsulluq səviyyəsi artır və bu tendensiya hazırda da davam edir: "2021-ci ildə də qiymətlərin kəskin artması buna daha ciddi təsir göstərəcək. Erməni milli valyutası olan dramın da devalvasiyası ölkədə həm qiymətlərin artımına, həm aclığa, həm də yoxsulluğun artmasına təkan verəcək. Erməni valyutasının bundan sonra da ucuzlaşması prosesi davam edəcək".

Ekspert onu da əlavə edib ki, işğal olunmuş əraziləri itirdiklərinə görə Ermənistan iqtisadiyyatında ciddi problemlər yaranıb. Odur ki, qarşıda Ermənistanı heç də yaxşı olmayan günlər gözləyir. "Jamnyus" qəzeti isə bu xüsusda yazır: "İqtisadiyyat Nazirliyində qiymət artımından "ciddi narahatdırlar", amma inflyasiya və qiymət artımı məsələsi Mərkəzi Bankın səlahiyyətlərinə daxildir. Mərkəzi Bankda qiymət artımının qarşısını almaq üçün yenidən maliyyələşdirmə faizi artırılıb. Bunu Mərkəzi Bankın sədri Martin Qalstyan elan edib. Onun sözlərinə görə, Mərkəzi Bank əsas siqnalı istehsalçıların diqqətinə çatdırmağa çalışır - qısamüddətli perspektivdə müəyyən qiymət artımı da ola bilər".

İqtisadçı Vahan Xaçatryan Mərkəzi Bank rəhbərinin ölkədə qiymət artımının dünya bazarındakı vəziyyətlə şərtləndiyi fikri ilə razıdır: "Səbəblər dünya iqtisadiyyatında və dünya bazarındadır. Ötən ilin iyulundan başlayaraq hazırda baş verənlər həm də kənd təsərrüfatı üçün əlverişsiz hava şəraiti ilə və əlbəttə ki, ən əsası pandemiya zamanı yaranan geoiqtisadi vəziyyətlə bağlıdır".

Bununla belə, ekspertin sözlərinə görə, baş bank inflyasiyaya görə cavabdehdir, iqtisadi inkişafa görə yox. Mərkəzi Bank inflyasiya səviyyəsinə təsir etməlidir. Bu, birtərəfli hərəkətdir, amma bu o demək deyil ki, inflyasiya problemi həll edildiyi zaman ölkə istisadiyyatı yüksəlməyə başlayacaq.

O da vurğulanır ki, konstitusiyada təsbit edilib ki, maliyyə vəziyyətinin sabitliyi üçün Mərkəzi Bank inflyasiyaya görə cavabdehdir. Amma əgər o, yenidən maliyyələşmə faizini çox yüksəldirsə, bu, artıq iqtisadiyyatın yüksəlişinə mənfi təsir göstərəcək.

## İnflyasiya pik həddə çatıb

Beynəlxalq Valyuta Fondu isə cari il Ermənistanda ÜDM istehsalının cəmi 1 faiz artacağını proqnozlaşdırıb. Fondun hesablamalarına görə, qiymət artımı və inflyasiya cari ilin birinci yarısında pik həddə çatıb. Sonradan inflyasiya idarə olunacaq 4 faizlik səviyyəyə düşə bilər. BMT-nin Ərzaq Proqramı və Kənd Təsərrüfatı Təşkilatı da Ermənistanda istehsalın azalacağını gözləyir. Təşkilatın proqnozuna əsasən, 2021-ci ildə taxıl istehsalı orta səviyyədən 30 faiz az, təxminən 208 min ton olacaq. Buğda istehsalının isə daha az - 120 min ton olacağı proqnozlaşdırılıb. Bildirilir ki, Ermənistan gələn il əvvəlkindən 20 faiz çox taxıl məhsulları idxal etməli olacaq.

Göründüyü kimi, əhalinin maddi rifah halının daha sürətlə pisləşməyə başlaması, yaranmış ağır vəziyyətdən xilas üçün hökumətin konkret nəticələr verə biləcək planlarının olmaması Nikol Paşinyan iqtidarından yaranan narazılığı həqiqətən də təhlükəli həddə çatdırır. Bu vəziyyət Ermənistanda hər an sosial partlayışların olacağını şərtləndirən əsas amillərdən biri qismində çıxış edir. Bu gedişlə ölkənin daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***







## ALLAH RƏHMƏT ELƏSİN!

Ramil Usubov Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hicran Hüseynova və həyat yoldaşı Rüfət Səfərəliyev Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hicran Hüseynova və həyat yoldaşı Rüfət Səfərəliyev Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hicran Hüseynova və həyat yoldaşı Rüfət Səfərəliyev Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikası daxili işlər nazirinin müavini Oruc Zalova qardaşı

**BAYRAM ZALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollektivi xidmətin əməkdaşı Məhəmməd Nooyevə bacısı

**CƏVAHİR ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin müdiri Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktoru, professor Natiq Cavadov və agentliyin kollektivi Azərbaycan Respublikası müdafiə nazirinin katibliyinin rəisi, general-mayor Namiq Poladova qardaşı

**RÖVŞƏN QASIM OĞLU POLADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi dövlət komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin əməkdaşı Vüqar Məmmədova atası

**RÖVŞƏN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Aran ailəsi ilə birlikdə Milli Məclisin deputatı, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Pərviz Ələkbərova atası

**SADAY MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə Rayon Məhkəməsinin sədri Məhərrəm Allahverdiyev və məhkəmənin kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhər Herontoloji Mərkəzin rəhbərliyi və kollektivi mərkəzin həkimi

**GÜLNARƏ VİLAYƏT QIZI RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1985
Qiyməti 40 qəpik